# AZƏRBAYCAN DİLİ

# 2

tədris dili

**DƏRSLİK**




1-ci hissə





# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhmməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

RAFİQ İSMAYILOV, ÜLKƏR NURULLAYEVA, ŞƏHLA ZAHİDOVA,
İRADƏ BAYRAMOVA, AYSEL XANALIYEVA

# AZƏRBAYCAN DİLİ 2

(tədris dili)

Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün
Azərbaycan dili fənni üzrə dərslik
(1-ci hissə)

©Azərbaycan Respublikası Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **trm@arti.edu.az** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

## Mündəricat

# 1 AİLƏ VƏ MƏKTƏB


| Fəsillər | səhifə |
|---|---|
| 1 • YAY TƏTİLİ | 8 |
| 2 • QOHUMLAR | 16 |
| 3 • DOĞMA MƏKTƏB | 23 |
| Ümumiləşdirici təkrar | 30 |




# 2 SAĞLAM HƏYAT




| Fəsillər | səhifə |
|---|---|
| 1 • GÜN REJİMİ | 32 |
| 2 • HİSSLƏR VƏ EMOSİYALAR | 40 |
| 3 • İDMAN | 49 |
| Ümumiləşdirici təkrar | 56 |

# 3 TƏBİƏTİN SİRLƏRİ



| Fəsillər | səhifə |
|---|---|

1 • TƏBİƏT HADİSƏLƏRİ . . . . 58
2 • HEYVANLAR ALƏMİ . . . . 66
3 • BİTKİLƏR ALƏMİ . . . . . 73
Ümumiləşdirici təkrar . . . . 80

# 4 YAXŞI NƏDİR, PİS NƏDİR

| Fəsillər | səhifə |
|---|---|

1 • DOSTLUQ . . . . . . . . 82
2 • SƏDAQƏT . . . . . . . . 89
3 • QƏNAƏT . . . . . . . . 94
Ümumiləşdirici təkrar . . . 104



# Kitabınla tanış ol

**SÖZLƏRİN YAZILIŞI**
Sözlərin düzgün yazılışı

**SÖZ BOĞÇASI**
Mövzu ilə bağlı yeni sözlər

**BUNLARI BİLMƏLİYİK**
Dil qaydaları və nitq bacarıqları ilə bağlı ümumi anlayışlar

**B** **Hansı abzasda verilən fikrə əsasən demək olar ki, Türkay babası ilə fəxr edir. Həmin abzası yenidən oxuyun.**

**C** **Mətndə fərqləndirilmiş cümləni izah edin.**

**Ç** **Mətndə göy rənglə verilmiş sözlərin tərkibindəki saitlərin növünü müəyyən edin.**

• Sözlərin yazılışı •

"Ə", yoxsa "A"

| Doğru | Yanlış |
|---|---|
| qəhrəman | qəhraman |
| həyəcan | həyacan |
| təbaşir | tabaşir |
| nəqərat | nəqarat |

• Söz boğçası •

- adət
- ağsaqqal
- qopuz
- bəyan etmək
- xeyir-dua

**D** **Nöqtələrin yerinə uyğun sait əlavə edib cümlələri köçürün.**

*Xalq öz **qəhr...manını** unutmur.*

*Ana **həy...can** keçirdi.*

*Məryəmin donu **t...başirə** bulaşmışdı.*

*Mahnının **nəq...ratını** təkrar et.*

**5 A** **Osman babanın adındakı saitlərin oxşar xüsusiyyətini müəyyən edin. Bu saitləri tələffüz edərkən dodaqlarınızın vəziyyətinə diqqət yetirin. Hansı fərqi hiss etdiniz?**

• Bunları bilməliyik • DODAQLANAN VƏ DODAQLANMAYAN SAİTLƏR

Dodaqların vəziyyətinə görə saitlərin aşağıdakı növləri var:

*Dodaqlanan saitlər* → o, ö, u, ü

*Dodaqlanmayan saitlər* → a, ə, e, ı, i

Dodaqlanan saitlərin tələffüzü zamanı dodaqlar bir qədər irəli uzanır və dairəvi forma alır.

**B** **Tərkibində dodaqlanan saitlər olan sözləri seçin.**

| | | | | |
|---|---|---|---|---|
| ailə | soyuq | yağış | üzüm | uzun |
| boru | moruq | kömür | dəyirmi | geyim |

**C** **Saitləri aşağıdakı kimi qruplaşdırın.**

1. *İncə, dodaqlanan saitlər*
2. *Qalın, dodaqlanan saitlər*
3. *İncə, dodaqlanmayan saitlər*
4. *Qalın, dodaqlanmayan saitlər*




20 2-ci fəsil • Qohumlar

**FAYDALI MƏSLƏHƏT**
Dil qaydaları və nitq bacarıqları ilə bağlı tövsiyələr

Faydalı məsləhət NECƏ DANIŞMALI?

Danışarkən aşağıdakı tövsiyələrə əməl etmək lazımdır:
- Hadisələri ardıcıl nəql edin.
- Müəyyən bir mövzuda danışarkən həmin mövzudan kənara çıxmayın.

# 1 AİLƏ VƏ MƏKTƏB

**1 A** **Suallara cavab verin.**

- Yay tətilini necə keçirdiniz?
- Hansı qohumlarınızla vaxt keçirmək daha maraqlıdır?



# YAY TƏTİLİ

**B** **Açar sözlərdən istifadə edərək şəkillər üzrə danışın.**

*Açar sözlər: tətil, meşə, ailə, piknik, uşaqlar, səndəl, əylənmək*



**C** **Yay tətilini xatırladan əşyaların adlarını deyin.**
**Bu əşyaların sırasına başqa hansı əşyaları əlavə edərdiniz?**

1 

2 

3 

4 

5 

6 

7 

8 

9 

10 

11 

12 

13 

**• Söz boğçası •**

- balıqqulağı
- çətir
- gözlük
- dondurma
- badminton
- raketka
- tilov
- səndəl
- yelpik
- çamadan

## 2 A Aşağıdakı cümlələr hansı əşyalar haqqındadır?

**1**
- Yağışlı və günəşli havada istifadə olunur.
- Uzun tutacağı və dəyirmi örtüyü var.
- Əldə tutulur, yaxud yerə bərkidilir.

**2**
- İçərisinə əşyalar yığılır.
- Müxtəlif materiallardan hazırlanır.
- Rahat daşınması üçün təkərli olur.

**3**
- Sərinləmək üçün istifadə olunur.
- Əllə yellətdikdə külək yaradır.
- Yığılıb-açılır.

• Bunları bilməliyik • **SÖZÜN İZAHI**

- Sözü izah etmək üçün onun aid olduğu varlığın əlamətləri (rəngi, forması, dadı, istifadə məqsədi və s.) sadalanır; məsələn:

***Səndəl*** – ayaqqabı növüdür. Dabansız və yüngül olur. Yayda geyinilir.
***Tilov*** – ucunda qarmaq olur, balıq tutmaq üçün istifadə olunur.

**B** **Göy rənglə verilmiş sözləri izah etmək üçün uyğun əlamət bildirən sözlər seçin.**

| | |
|---|---|
| BAL | *şirin, mavi, çalışqan, qatı, yumru,* |
| LİMON | *qısa, turş, ağ, sulu, uzunsov, sarı* |
| KƏPƏNƏK | *qanadlı, dadlı, rəngbərəng, incə, zəhərli* |
| QARPIZ | *yüngül, yağlı, yaşıl, iri, narıncı, yumru, zolaqlı, şirəli* |

**C** **"B" tapşırığında seçdiyiniz əlamət bildirən sözlərin köməyi ilə cümlələr qurub həmin sözləri izah edin.**

• Nümunə •

*Qarpız iri, yumru, zolaqlı, yaşıl, şirəli olur.*

**Ç** **Tapmacaları oxuyun. Hər bir tapmacada verilən əlamətlərə görə uyğun sözü tapın.**

*Rəngbərəngdir gül kimi,*
*Qanadı var tül kimi.*
*Uçur bağda, çəməndə,*
*Çox yüngüldür tük kimi.*

*Sevdiyi gül-çiçəkdir,*
*Peşəsi işləməkdir.*
*Ona qonaq gəlsəniz,*
*Bilin evi pətəkdir.*

• Bunları bilməliyik • **TAPMACA**

Tapmacada əşyanın əlamətləri üstüörtülü şəkildə verilir. Əlamətlərə görə əşyanın adını tapmaq tələb olunur; məsələn:

*Aldım bir dənə, açdım, min dənə. (Nar)*

**D** **Tapmacaları oxuyun. Tapmacanın cavabını tapmaqda sizə kömək edən əlamətləri söyləyin.**

*Həyətdə dağ,*
*Pambıqdan ağ.*
*Evə gələr,*
*Suya dönər.*

*Yağış yağanda*
*Çimər, yuyunar.*
*Yazda geyinər,*
*Qışda soyunar.*

*Bağda sürünər gəzər,*
*Az-az görünər gəzər.*
*Oxşayar bir yumağa,*
*Qorxuram əl vurmağa.*

**3 A** **Mətni oxuyun. Əhvalatı danışan obrazın adını müəyyən edin.**

## SEVİMLİ GÜLLƏR

*I HİSSƏ*

Yay tətili idi. Bir gün dostum Teymur bizə gəlmişdi. Onunla filmə baxdıq, şahmat oynadıq, pazl yığdıq. Sonra da xalçanın üstündə güləşməyə başladıq. Birdən ikimiz də **zərblə** masaya dəydik. Büllur güldan **masanın** üstündən aşdı. Yerə çırpılan güldan **çilik-çilik** oldu. İçindəki su və qızılgüllər yerə **dağıldı**. İkimiz də **çaşqın** halda dayanıb baxdıq.

Dedim:

– Birazdan anam gələcək, bizə hirslənəcək.

Mən qaçıb döşəmə silmək üçün dəsmal gətirəndə Teymuru qapıda gördüm. Dedi: ...→



...→ – Nihad, mən daha gedim, evdə narahat olarlar.

Teymur gedəndən sonra öz-özümə dedim: “Belə də dost olar? Məni bu halda qoyub qaçdı! Ayrı vaxt axşamacan bizdə qalıb oynayardı”.

Anam gələnəcən hər tərəfi təmizlədim. Sonra boş stola baxıb fikirləşdim: “Görəsən, mən nə edim ki, anam məyus olmasın?” ...→

**• Söz boğçası •**

- büllur
- masa
- zərblə
- çilik-çilik
- çırpılmaq
- çaşqın
- məyus olmaq



**B** **Nihad nə etsə, anası məyus olmaz? Nihada hansı məsləhətləri verərdiniz?**

**C** **Mətndən ikinci şəklə aid cümləni seçib oxuyun.**

**Ç** **Obrazlara münasibət bildirin.**
**Hansı obrazın davranışı xoşunuza gəlmədi? Fikrinizi əsaslandırın.**

**D** **Aşağıdakı tapmacaları oxuyun.**
**Hansı tapmacanın cavabı mətnlə bağlıdır?**

*Balacayam, sarıyam,*
*Deməyin ki, darıyam.*
*Sizə çörək oluram,*
*Zəmilərin barıyam.*

*Ətirlidir, gözəldir,*
*Mat qoyur insanları.*
*Heyif ki, əlimizi*
*Qanadır tikanları.*

**E** **Mətndə fərqləndirilmiş hər bir sözü yaxınmənalı sözlə əvəz edib cümlələri köçürün.**

**İstifadə üçün sözlər:** *təəccüblü, tökülmək, qırıq-qırıq, bərkdən, stol*

**• Nümunə •**

Yerə çırpılan güldan **qırıq-qırıq** oldu.

## 4 A Oxuyun. Nihada verdiyiniz məsləhətlə mətnin davamını  müqayisə edin.

*II HİSSƏ*

Qapını gülə-gülə açdım. Anamın üzündən öpüb çantasını aldım. Yumşaq başmaqları cütləyib qarşısına qoydum. Anam sevindi:

– Çox sağ ol, oğlum! Şükür, balam böyüyüb mənə qulluq edir.

Otağa keçdi. Teymuru görməyib soruşdu:

– Teymur niyə tez getdi?

Anamın kefi pozulmasın deyə heç nə demədim.



Sonra diqqətlə stolun üstünə baxdı.

Vərəqdə rəsm çəkib qəşəng rəngləmişdim. Vərəqi çərçivəyə salıb stolun üstündə büllur güldanın yerinə qoymuşdum. O, şəkli əlinə alıb heyran-heyran baxdı:

– Oğlum, nə gözəl çəkmisən! Bunlar mənim gördüyüm ən gözəl qızılgüllərdir!

Gözlədim ki, anam büllur güldana qoyduğu gülləri soruşacaq. O isə heç nə demədi. Gülümsəyib mətbəxə keçdi.

Axşam Teymur anası ilə bizə gəldi. Əlində bir dəstə qızılgül vardı...

*Reyhan Yusifqızı*

**• Söz boğçası •**

• başmaq • çərçivə

## B “Sevimli güllər” mətnində baş verən əsas hadisələri danışın.

**• Bunları bilməliyik •** **HEKAYƏ XƏRİTƏSİ**

Hekayə xəritəsi mətnin məzmununu dərindən qavramağa kömək edir. Hekayə xəritəsində, əsasən, aşağıdakılar göstərilir:

**MƏTNİN ADI**

- **Baş qəhrəman** – *Mətndəki əsas obraz*
- **Köməkçi obrazlar** – *Mətndəki digər obrazlar*
- **Məkan** – *Hadisələrin baş verdiyi yer*
- **Zaman** – *Hadisələrin baş verdiyi vaxt*
- **Məzmun** – *Mətndəki əsas hadisələr*
- **Əsas fikir** – *Mətndən  çıxan nəticə*

**C** **Qruplarla iş**

**“Sevimli güllər” mətni üzrə hekayə xəritəsi tərtib edin.**

**Ç** **Suallara cavab verməklə mətnin sonluğunu genişləndirib danışın.**

*1. Teymur nə üçün anası ilə gəlmişdi?*
*2. Teymur niyə qızılgül gətirmişdi?*
*3. Teymurla Nihad səhvlərini necə etiraf etdilər?*
*4. Uşaqların etirafına ananın münasibəti necə oldu?*

**5** **A** **Şəkillərdən istifadə etməklə söz sırasını davam etdirin. Seçiminizi əsaslandırın.**

*1. Çəkmə, səndəl, tufli, ...*
*2. Kəlbətin, bel, çəkic, mala, ...*
*3. Bənövşə, nərgiz, zanbaq, lalə, ...*
*4. Müəllim, həkim, mühəndis, ...*






• Bunları bilməliyik • **SÖZÜN ÜMUMİ MƏNASI**

Bir çox sözlər ümumi məna altında birləşir; məsələn:

*geyim*: köynək, şalvar, papaq, palto, ətək

*peşə*: müəllim, həkim, kosmonavt, dülgər, mühəndis

Sözün izahı zamanı onun əlamətləri ilə yanaşı, ümumi mənası da göstərilir.

**qızılgül** — müxtəlif rəngli, tikanlı, ətirli gül

*söz* (qızılgül) — *əlamətlər* (müxtəlif rəngli, tikanlı, ətirli) — *ümumi məna* (gül)

## B Qruplarla iş

**Aşağıdakı sözlərin ümumi mənasını müəyyən edin. Hər bir söz sırasını davam etdirin.**

1 *göyqurşağı, qar, ...*
2 *badminton, futbol, ...*
3 *Günəş, ulduz, ...*
4 *dəftər, qələm, ...*

a *məktəb ləvazimatı*
b *səma cisimləri*
c *təbiət hadisələri*
ç *idman növləri*

## C

**Şəkildə gördüyünüz varlıqların əlamətlərini sadalayın. Hər bir sözün ümumi mənasını söyləyin.**


*zürafə*


*ərik*


*yerkökü*


*gəmi*


*tar*

## Ç

**Verilmiş izahlarla sözləri uyğunlaşdırın. Hər bir izahda ümumi mənanı müəyyən edin.**

1 *evdə geyinmək üçün dəri və ya parçadan hazırlanmış yüngül ayaqqabı*
2 *yemək və ya iş görmək üçün nəzərdə tutulan mebel*
3 *xörək hazırlamaq üçün müxtəlif əşyalarla təchiz olunmuş otaq*
4 *gülü qoymaq üçün müxtəlif formalı qab*

a *güldan* b *mətbəx* c *masa* ç *başmaq*

## 6 A

**Şəkillərdə gördüyünüz varlıqların adlarını əlifba sırası ilə düzün.**


*çarpayı*
1


*kreslo*
2


*ütü*
3


*tozsoran*
4


*divan*
5


*soyuducu*
6

• Bunları bilməliyik • **İZAHLI LÜĞƏT**

Sözlərin mənası izahlı lüğətdə verilir. Lüğətdə izahı verilən sözlər əlifba sırası ilə düzülür. Bu, lazım olan sözü tez tapmağa kömək edir. Bəzi lüğətlərdə izahlarla yanaşı, şəkillər də verilir.

**B** **Aşağıda verilmiş lüğətin quruluşu haqqında danışın.**

## A

**Açar** — qıfılı açmaq və ya bağlamaq üçün istifadə olunan alət.

**Akvarel** — su ilə qarışdırılmış rəng, sulu boya.



**Akvarium** — su heyvanlarını və bitkilərini saxlamaq üçün şüşə qab.



**Anbar** — taxıl, ərzaq və s. saxlamaq üçün xüsusi tikili.

**Albalı** — tünd-qırmızı rəngli, tumlu, şirəli giləmeyvə.

## B

**Balta** — odun doğramaq, ağac kəsmək və s. üçün işlədilən saplı, itiağızlı dəmir alət.

**Batut** — üzərində hoppanma hərəkətləri edilən idman avadanlığı.

**Buta** — xalçaçılıq sənətində geniş istifadə olunan, badama bənzəyən naxış.



**Büllur** — xüsusi parlaqlığı olan şüşə.

## C

**Canavar** — it cinsindən olan boz dərili, yırtıcı heyvan.



**Cığır**— gediş-gəlişdən əmələ gələn ensiz, dar yol.

**Coystik** — kompüter oyunlarında istifadə olunan idarəedici qurğu.



**C** **Yuxarıdakı lüğətdə "buta" sözünü tapın və izahını oxuyun. Sözün izahında əlamətləri və ümumi mənanı müəyyən edin.**

**Ç** **Qruplarla iş**

**Aşağıdakı sözlərdən ibarət izahlı lüğət hazırlayın.**

***1-ci qrup:*** *zürafə, çörək, dərzi*
***2-ci qrup:*** *nərdivan, kvadrat, daxıl*
***3-cü qrup:*** *aşpaz, hörümçək, şərf*
***4-cü qrup:*** *inək, xalça, stəkan*

•fəsil• 2

# QOHUMLAR

**1 A** **Sual işarəsinin yerinə uyğun gələn ümumi mənanı müəyyən edin.**

**AİLƏ**: *ata*, *baba*, *nənə*, *ana*, *bacı*, *qardaş*

**?**: xala, dayı, bibi, əmiqızı, əmi, xalaoğlu

**B** **Şeiri oxuyun. Qohumluq bildirən sözləri dəftərinizdə qeyd edin.**

### MƏNİM ATAM

Uşaqlar atamın
Başına cəm idi:
Birinə dayıdı,
Birinə əmidi
Mənim atam.

Nənəmə oğuldu,
Əmimə qardaşdı.
Bacıma atadı,
Anama sirdaşdı
Mənim atam.

*Rafiq Yusifoğlu*



**C** **Aşağıdakı sxemdən istifadə edərək qohumluq bildirən sözlərin mənasını izah edin.**



**ATANIN**

| atası | anası | qardaşı | bacısı |
|---|---|---|---|
| **baba** | **nənə** | **əmi** | **bibi** |

**ANANIN**

| atası | anası | qardaşı | bacısı |
|---|---|---|---|
| **baba** | **nənə** | **dayı** | **xala** |

• Nümunə • ***Xala** – ananın bacısıdır.*

**2 A** **Aşağıdakı təlimata uyğun olaraq ailə ağacınızı hazırlayın.**

• TƏLİMAT •

***Lazım olan əşyalar:***
*kiçik budaq, rəngli kağızlar, ip, qab, plastilin.*

***Hazırlanma qaydası:***
1. *Kiçik budağı plastilinin köməyi ilə qutuda yerləşdirin.*
2. *İstədiyiniz formada kiçik kağızlar kəsin.*
3. *Kağızın bir üzündə doğmanızın adını, digər üzündə qohumluq əlaqənizi yazın.*
4. *Hazır kağızlara ip keçirin.*
5. *Kağızları budaqdan asın.*




**B** **Sözləri oxuyun, suallara cavab verin.**

*A) bibi* *B) baba* *C) xala*

**Hansı söz**
- tərkibindəki saitlərə görə digərlərindən fərqlidir?
- tərkibindəki samitlərə görə digərlərindən fərqlidir?

**C** **Saitləri tələffüz edin. Hansı səslər qalın, hansılar isə incə səslənir?**

| | | | |
|---|---|---|---|
| ə ----- a | i ----- ı | ü ----- u | ö ----- o |

• Bunları bilməliyik • **QALIN VƏ İNCƏ SAİTLƏR**

Azərbaycan dilində 9 sait səs var. Onlardan dördü qalın, beşi incə saitdir.

*Qalın saitlər* → a, ı, o, u

*İncə saitlər* → e, i, ə, ö, ü

**Ç** **Sözləri köçürün. Qalın saitlərin altından xətt çəkin.**

*nanə, baba, bol, həyat, ayrı, at, şahid, don, duz, son*

- **Qalın saitləri incə saitlərlə əvəz edib yeni sözlər düzəldin.**

## 3 A Mətni oxuyun. Obrazların adlarını dəftərinizdə qeyd edin.

### MƏNİM BABAM



Ülviyyə Türkayın sinif yoldaşıdır. Onlar eyni məhəllədə yaşayırlar. Çox vaxt dərslərinə birlikdə hazırlaşırlar. Bir gün Ülviyyə Türkaygilə gəlmişdi. Divardan asılmış şəkil Ülviyyənin diqqətini çəkdi. Rəfiqəsindən soruşdu:

– Bu kimdir?

– Təbriz babamdır.

– Nə?! Baban?! Heç belə baba görməmişəm! Axı əmiyə, dayıya oxşayır. Baba bu qədər cavan ola bilməz. Mənim babama bir bax...

Türkay şəklə gözucu nəzər salıb fikirli-fikirli dilləndi:

– Nə bilim. Anamgil deyirlər ki, o mənim babamdır. Amma mən onu heç vaxt görməmişəm.

Uşaqlar həyətə çıxdılar. Elə bu vaxt Ülviyyənin babasını gördülər. Ülviyyə soruşdu:

– Osman baba, sən Türkayın babasını görmüsən? Türkaygildə divardan asılmış şəkil onundur?

**• Söz boğçası •**

- məhəllə
- qonşu
- rəfiqə
- gözucu



– Hə, əlbəttə, qızım. O, Türkayın babasıdır.

– Axı elə cavan baba olmaz. O sənin kimi deyil.

Osman baba dedi:

– Gəlin gedək bizə. Sizə bir şəkil göstərəcəyəm.

## B Doğru (D), yoxsa yanlış (Y).

| | |
|---|---|
| *– Türkay ilə Ülviyyə qonşudurlar.* | D/Y |
| *– Ülviyyənin babası cavandır.* | D/Y |
| *– Türkay öz babasını heç vaxt görməmişdi.* | D/Y |
| *– Osman baba Türkayın da babasıdır.* | D/Y |
| *– Türkayın babası şəkildə cavan görünür.* | D/Y |
| *– Türkay ilə Ülviyyə eyni sinifdə oxuyurlar.* | D/Y |

**C** **Qızlar niyə təəccüblənibIər?**
**Ülviyyənin dediyi cümləyə münasibətinizi bildirin.**

*Baba bu qədər cavan ola bilməz.*

**Ç** **Hansı obrazın adındakı saitlərin hamısı incədir?**
**Öz adınızdakı saitlərin növünü müəyyən edin.**

**4 A** **Osman babanın göstərdiyi şəklə baxaraq mətnin davamını təxmin edin.**

Osman baba albomu açıb şəkildəki hərbi geyimli adamları qızlara göstərdi:

– Baxın, görün hansını tanıyırsınız?

Qızlar ikisi də birdən dilləndi:

– Bu odur, Təbriz babanın şəklidir.

– Bəs o birisini tanımadınız? – deyə Osman baba qızların üzünə baxdı.

O, qızların susduğunu görüb aramla söylədi:

– Bu da mənəm.

– Necə? – deyə rəfiqələr çox təəccübləndilər.

– Hə, biz bu şəkli müharibədə çəkdirmişik. O vaxt Təbriz döyüşlərin birində qəhrəmancasına şəhid oldu, mən isə sağ-salamat qayıdıb gəldim. Sonra da yavaş-yavaş qocaldım. O isə həmişə belə cavan qalacaq.

Türkay kövrəlmişdi. O, titrək səslə pıçıldadı:



**• Söz boğçası •**

• pıçıldamaq • titrək • kövrəlmək

– Kaş babam ölməyəydi.

– O ölməyib, bala. **Qəhrəmanlar heç vaxt ölmürlər.**

Axşam Türkayın anası işdən qayıtdı. Şəkli yerində görməyib bərk həyəcan keçirdi. Qızını çağırıb soruşdu:

– Şəkil hanı, qızım?

– Məktəbə aparmışam. Mən artıq babamın kim olduğunu bilirəm, ana. Mənim babam qəhrəmandır, qəhrəman! İstəyirəm onu yoldaşlarım da tanısınlar.

*Flora Xəlilzadə*

**B** **Hansı abzasda verilən fikrə əsasən demək olar ki, Türkay babası ilə fəxr edir. Həmin abzası yenidən oxuyun.**

**C** **Mətndə fərqləndirilmiş cümləni izah edin.**

**Ç** **Mətndə göy rənglə verilmiş sözlərin tərkibindəki saitlərin növünü müəyyən edin.**

• Sözlərin yazılışı •

“Ə”, yoxsa “A”

| Doğru | Yanlış |
|---|---|
| qəhrəman | qəhraman |
| həyəcan | həyacan |
| təbaşir | tabaşir |
| nəqərat | nəqarat |

**D** **Nöqtələrin yerinə uyğun sait əlavə edib cümlələri köçürün.**

*Xalq öz **qəhr...manını** unutmur.*

*Ana **həy...can** keçirdi.*

*Məryəmin donu **t...başirə** bulaşmışdı.*

*Mahnının **nəq...ratını** təkrar et.*

**5 A** **Osman babanın adındakı saitlərin oxşar xüsusiyyətini müəyyən edin. Bu saitləri tələffüz edərkən dodaqlarınızın vəziyyətinə diqqət yetirin. Hansı fərqi hiss etdiniz?**

• Bunları bilməliyik • **DODAQLANAN VƏ DODAQLANMAYAN SAİTLƏR**

Dodaqların vəziyyətinə görə saitlərin aşağıdakı növləri var:

*Dodaqlanan saitlər* → o, ö, u, ü

*Dodaqlanmayan saitlər* → a, ə, e, ı, i

Dodaqlanan saitlərin tələffüzü zamanı dodaqlar bir qədər irəli uzanır və dairəvi forma alır.

**B** **Tərkibində dodaqlanan saitlər olan sözləri seçin.**

| | | | | |
|---|---|---|---|---|
| ailə | soyuq | yağış | üzüm | uzun |
| boru | moruq | kömür | dəyirmi | geyim |

**C** **Saitləri aşağıdakı kimi qruplaşdırın.**

*1. İncə, dodaqlanan saitlər*
*2. Qalın, dodaqlanan saitlər*
*3. İncə, dodaqlanmayan saitlər*
*4. Qalın, dodaqlanmayan saitlər*



**Ç** **Qruplarla iş** **Sözləri saitlərin növlərinə görə qruplaşdırın.**

*yelpik, ömür, qapı, soyuq, gəmi, balıq, kömür, yaşıl, rəqib, qonşu, meşə, tülkü, gümüş, uzunsov, eynək, qısa, xoruz, yaxmac, Kərim, bolluq, igid, köpük, qaşıq, Murov*

**1-ci qrup:** *incə, dodaqlanan saitli sözlər;*

**2-ci qrup**: *qalın, dodaqlanan saitli sözlər;*

**3-cü qrup**: *qalın, dodaqlanmayan saitli sözlər;*

**4-cü qrup**: *incə, dodaqlanmayan saitli sözlər.*

**D** **Ailənizin fəxr etdiyi yaxın qohumunuz haqqında məlumat toplayın. Məlumat vərəqini aşağıdakı kimi tərtib edin.**

- Yoldaşlarınıza tanıtmaq istədiyiniz qohumunuzun adını, soyadını, atasının adını yazın.
- Onun şəklini vərəqə yapışdırın.
- Onunla qohumluq əlaqənizi yazın.
- Qohumunuzla bağlı bildirmək istədiyiniz məlumatları yazın.
- Yazınıza başlıq verin.



**6** **A** **Şeirin adını oxuyun, məzmununu təxmin edin.**

### YADİGAR ADLAR

Tural, Günay, mən və Günel
Bir babanın nəvəsiyik.
Bu dünyadan köçüb getmiş
İgidlərin əvəziyik.

Ürəyimiz ayrı deyil
Elimizdən, obamızdan.
Adlarımız yadigardır
Bizə Qorqud babamızdan.

Biz getsək də, onlar qalıb
Əsrlərlə yaşayacaq.
Babaların, nənələrin adlarını
Nəvələri daşıyacaq.

*Rafiq Yusifoğlu*



**B** Nənə və babanızın sizdən başqa nəvələri varmı? Onlar kimlərdir?

**C** **Cütlərlə iş** Şeirin hansı misralarında sözlərin tərkibində yalnız dodaqlanmayan saitlər iştirak edir?

**Ç** Aşağıdakı mətni oxuyun. Şeirin hansı misraları ilə səsləşdiyini müəyyən edin.

**• Söz boğçası •**

- adət
- ağsaqqal
- qopuz
- bəyan etmək
- xeyir-dua

*Qədim zamanlarda türk elində belə bir adət vardı: yeni doğulan körpəyə ad qoyulmazdı. Uşaq böyüyəndə ona adqoyma mərasimi keçirilərdi. Qohum-qonşular bir araya toplaşar, elin ağsaqqalı Dədə Qorqud gələrdi. O, gəncin əməllərinə uyğun ad seçərdi. Qopuz çalaraq gəncin adını hər kəsə bəyan edər, ona öz xeyir-duasını verərdi.*

**D** Mətndən istifadə etməklə şəkli bir neçə cümlə ilə təsvir edib yazın.



**E** "Qopuz" sözünün izahını oxuyun. Varlığın əlamətlərini və ümumi mənasını bildirən sözləri müəyyən edin.

*Qopuz – saza oxşayan, qədim simli musiqi aləti*

•fəsil• 3

# DOĞMA MƏKTƏB

**1 A Aşağıdakı sözləri oxuyun. Bu sözlər sizə nəyi xatırladır?**

*sinif, kitab, müəllim, lövhə, parta, tənəffüs, dərs, şagird*

**B Şeiri oxuyun. Qafiyələnən sözlərə diqqət yetirin.**

• Söz boğçası •

• hədər • aran

## MƏKTƏB YOLLARI

Yollar dünyada çoxdur,
Sayı-hesabı yoxdur:
**Bostan yolu, bağ yolu,**
**Aran yolu, dağ yolu...**

Bir yol var ki, dünyada
Onu getmirsən hədər.
Həmişə düşür yada,
Qoca olana qədər.

Bax, uşaqla doludur,
Bu yol məktəb yoludur.

*Xanımana Əlibəyli*



**C Fərqləndirilmiş misralarda adı çəkilən yolları təsvir edin.**

**Ç 2-ci bənddə məktəb yolu haqqında deyilən fikirləri izah edin. Məktəbinizə gedən yolu təsvir edin.**

**D Şeirdə yer bildirən sözləri seçin və izah edin.**

• Nümunə • ***Aran*** *– isti, düzənlik yer.*

**E Şeirdə qafiyələnən sözləri seçib nümunədəki kimi yazın.**

• Nümunə •

*dünyada – yada*

**Ə** **Şeirdən seçilmiş sözlərə diqqət yetirin.**

*bostan, aran, dünya, hədər, hesab, həmişə, qoca, uşaq, məktəb*

**Hansı sözlərdə**
- *yalnız incə saitlər işlənmişdir?*
- *yalnız qalın saitlər işlənmişdir?*
- *həm qalın, həm incə saitlər işlənmişdir?*

• Bunları bilməliyik• **AHƏNG QANUNU**

- Sözdə yalnız qalın və ya incə saitlərin işlənməsi **ahəng qanunu** adlanır.

**gündəlik**
***incə** sait* — ***incə** sait* — ***incə** sait*

**jurnal**
***qalın** sait* — ***qalın** sait*

- “Gündəlik”, “jurnal” sözləri ahəng qanununa tabedir.
- Elə sözlər də var ki, tərkibində həm qalın, həm də incə sait işlənir. Belə sözlər ahəng qanununa tabe olmur.

**kitab**
***incə** sait* — ***qalın** sait*

**şagird**
***qalın** sait* — ***incə** sait*

**F** **Ahəng qanununa tabe olan sözləri seçin. Həmin sözlərdə saitlərin qalın və ya incə olduğunu müəyyənləşdirin.**

*torpaq, muzey, mehriban, Qobustan, əkinçi, müharibə, göyərçin, teleskop, hiylәgər, qurbağa*

**G** **Dördündən biri fərqlidir.**

| | | | |
|---|---|---|---|
| a. körpü | b. şagird | c. gülüş | d. qorxaq |
| a. pələng | b. dəniz | c. xəzinə | d. müsabiqə |
| a. toxucu | b. qayıq | c. qəhrəman | d. payız |

**2 A Mətnin adını oxuyun, şəklə baxın. Sizcə, mətndə nədən danışılır?**

## YOLDA HADİSƏ

Nihadla Natiq sinfə daxil olanda artıq ikinci dərs başlamışdı. Gülarə müəllim qaşqabaqlı halda onlardan soruşdu:

– Niyə dərsə gecikmisiniz?

Uşaqlar bir-birinin sözünü kəsə-kəsə danışmağa başladılar:

– Qoca qadın yeriyə bilmirdi...

– Hə, onun ayağı burxulmuşdu...

– Parkda yer buz idi, çox sürüşkən idi.

– Biz parkda görüşüb məktəbə tərəf gəlirdik.

– Təcili yardım maşını gəldi, qadını xərəyə qoyub apardılar...

– Hə, biz polisə xəbər verdik, o da təcili yardıma zəng elədi...

– O, birdən sürüşüb yerə yıxıldı...

– Bizdən qabaqda qoca qadın gedirdi...

– Biz ona kömək elədik ki, ayağa qalxsın...

Gülarə müəllim onların sözünü kəsdi:

– Bir dəqiqə susun. Nəfəsinizi dərin. Mən sizin danışığınızdan heç nə başa düşmədim.

*Rafiq Ələkbəroğlu*



• Söz boğçası •

- qaşqabaqlı
- burxulmaq
- xərək
- nəfəsini dərmək
- sözünü kəsmək

**B Mətni hansı cümlə ilə tamamlamaq olar?**

**1.** Çox ətraflı danışırdınız.
**2.** Hadisələri ardıcıllıqla danışın.
**3.** Siz dərsə hazır deyilsiniz.

**Faydalı məsləhət** | **NECƏ DANIŞMALI?**

Danışarkən aşağıdakı tövsiyələrə əməl etmək lazımdır:

- Hadisələri ardıcıl nəql edin.
- Müəyyən bir mövzuda danışarkən həmin mövzudan kənara çıxmayın.

**C** **Nihadla Natiqin başına gələn hadisəni ardıcıllıqla nəql edin.**

**Ç** **Hansı cümlələri mətndə fərqləndirilmiş hissəyə əlavə etsək, mövzudan kənara çıxmış olarıq?**

*a) – Təcili yardım maşını tez gəldi.*
*b) – Parkda çoxlu karusellər var idi.*
*c) – Mənim çantam çox ağırdır.*
*d) – Mən qadına su verdim.*

**D** **Hansı başlıqlar mətnin məzmununa uyğundur? Fikrinizi əsaslandırın.**

*1. Xeyirxah oğlanlar*
*2. Küləkli payız səhəri*
*3. Dərsə gecikən şagirdlər*
*4. Parkda istirahət*

## E Qruplarla iş

**Şəkillərə baxın. Hər şəklə uyğun mətn qurub danışın.**



1-ci qrup

*Tural məktəbin dəhlizi ilə gedirdi...*



2-ci qrup

*Uşaqlar həyətdə futbol oynayırdılar.*



3-cü qrup

*Samir məktəbdən qayıdırdı.*



4-cü qrup

*Zəhra özünü yaxşı hiss etmirdi...*

**3 A** **Şəkillərdə hansı peşə sahiblərini görürsünüz? Hər bir peşə haqqında danışın. Hansı peşəni daha vacib hesab edirsiniz? Niyə belə düşünürsünüz?**



**B** **İnsanların müxtəlif peşələrə yiyələnməsində hansı peşə sahibinin rolu daha çoxdur?**

**C** **Mətni oxuyun. Suallara cavab verin.**

## PADŞAH VƏ MÜƏLLİM

Gözəl bir yaz səhəri idi. Padşah adamları ilə vətənə qayıdırdı. Camaat hörmətlə padşahı qarşılayırdı. Adamlar əllərindəki çiçək dəstələrini padşaha vermək istəyirdilər. Padşahın yanında müəllimi də var idi. Padşah heç bir zaman müəlliminin qarşısına keçməzdi. Asta-asta arxasınca gedərdi.

Hamı padşahdan irəlidə gedən müəllimi padşah hesab edib çiçəkləri ona verməyə çalışırdı.

Müəllim atını bir qədər geriyə çəkdi. Gözucu padşahı göstərib dedi:

– Padşah odur, çiçəkləri ona verin!

Bunu görən padşah müəllimini işarə edib dedi:

– Doğrudur, padşah mənəm, amma o, padşahın müəllimidir. Çiçəkləri ona verin.

*Fazil Tülbəndçi*



1. **İnsanlar nə üçün gülləri müəllimə verirdilər?**
2. **Padşah nə üçün çiçəkləri özü qəbul etmədi?**

**Ç** **Mətndəki əsas fikri müəyyənləşdirib mətn üçün başqa ad düşünün.**

**D** **Tərkibində "t" hərfi olan sözlərin yazılışına diqqət yetirin. Aşağıda səhv yazılmış sözləri seçib düzgün yazın.**

*usda, üstəgəl, padşah, isti, şafdalı, xəstə, kəndli, gösdərmək, Məstan, rəndə, işdirak, Daşdəmir, azadlıq*

• Sözlərin yazılışı •

"T", yoxsa "D"

| Doğru | Yanlış |
|---|---|
| dəstə | dəsdə |
| asta | asda |
| istəmək | isdəmək |
| taxta | taxda |
| həftə | həfdə |

**4 A** **Şeiri oxuyun, suallara cavab verin.**

## MÜƏLLİM

Ey hörmətli müəllim,
Hər könüldə yerin var.
Hər kənddə, hər şəhərdə
Sənin **meyvələrin** var.

Əkdiyin ağacların
Gülü, çiçəyi solmaz.
Dünyada sənin kimi
Barlı bağban tapılmaz.

*Bəxtiyar Vahabzadə*



• **Şeirin müəllifi kimdir? O, müəllimi kimə bənzədir?**

**B** **1-ci bənddə fərqləndirilmiş sözü şeirin məzmununa uyğun hansı sözlə əvəz edə bilərik?**

*a) müəllimlərin*
*b) şagirdlərin*
*c) dostların*

**C** **Şeirin ikinci bəndində ahəng qanununa tabe olmayan sözü müəyyən edin.**

**Ç** **Aşağıdakı açıqçanı oxuyun. Suallara cavab verin.**

*Təbrik edilən şəxsə müraciət* → Mənim əziz və qayğıkeş müəllimim,

*Təbrik və arzular* → Bayramınız mübarək olsun!

*İmza* → Şagirdiniz Lalə

*Tarix* → 5 oktyabr, 2021



**1. Açıqçanı kim hazırlayıb?**
**2. Açıqça nə məqsədlə hazırlanıb?**
**3. Açıqça nə vaxt hazırlanıb?**

**D** **Aşağıda verilmiş hansı cümlələrdən açıqça yazarkən istifadə etmək olar?**

1. *Bayramınız mübarək olsun!*
2. *Sizə təşəkkürümü bildirirəm!*
3. *Ad gününüzü təbrik edirəm!*
4. *Sizə uğurlar arzulayıram!*
5. *Sizdən üzr istəyirəm!*
6. *Axşamınız xeyir olsun!*
7. *Uzun ömür, cansağlığı arzu edirəm.*

**E** ***5 Oktyabr Müəllimlər Günü*** **münasibətilə müəlliminizə açıqça yazaraq onu təbrik edin.**

# Ümumiləşdirici təkrar

**5 A** **Mətni oxuyun. Suallara cavab verin.**

## CANLI SAAT



Orxan səhərlər yuxudan oyana bilmirdi. Ona görə də dərsə tez-tez gecikirdi.

Bir gün qar yağmışdı. Orxan şirin yuxudan sərçələrin civiltisinə oyandı. Gözünü açan kimi saata baxdı. Saat yeddi idi. Orxan vaxtında yuxudan oyandığına çox sevindi.

O qalxıb paltarını geyindi. Tez sərçələrə dən səpdi. Sərçələr dəni dimdikləyib yedilər.

Orxan dedi:

– Sabah gəlin, yenə dən verəcəyəm.

Həmin gündən Orxan bir də dərsə gecikmədi. Hər səhər sərçələr onun pəncərəsinə yığılıb civilti ilə şüşəni döyəcləyir, yem gözləyirdilər. Orxan yuxudan ayılıb onları yemləyirdi.

*Əli Səmədli*

**B** **Sizcə, nə üçün mətnə “Canlı saat” adı verilmişdir?**

**C** **Cümlələri davam etdirin.**

*Orxan səhərlər yuxudan oyana bilmirdi, ona görə də ...*
*Quşlar hər gün Orxanın pəncərəsinə qonurdu, çünki ...*
*Orxan artıq dərsə vaxtında gedirdi, çünki ...*

**Ç** **Hər bir sütunda verilmiş sözlərin ümumi mənasını müəyyənləşdirib boş xanaya uyğun gələn sözü seçin.**

*qaranquş, qar, səhər, şərf, pəncərə*

| | | | | |
|---|---|---|---|---|
| | *palto* | | *sərçə* | |
| *axşam* | | *külək* | | *qapı* |
| *günorta* | *papaq* | *yağış* | *göyərçin* | *döşəmə* |

**D** **Nöqtələrin yerinə uyğun gələn hərflər əlavə edib sözləri köçürün.**

*us...a, qəhr...man, şaf...alı, həy...can, həf...ə, nəq...rat*

# 2 SAĞLAM HƏYAT

**1 A Şəkillərə baxın və suallara cavab verin.**

- Şəkildə gördüyünüz idmançı haqqında nə bilirsiniz?



- Şəkildəki üz ifadələri sizə nədən xəbər verir?



- Aşağıdakı işarələr hansı idman növlərini ifadə edir?



- Gün ərzində görəcəyiniz işləri əvvəldən planlaşdırırsınızmı?



- Asudə vaxtınızı necə keçirirsiniz?



•fəsil• 1

# GÜN REJİMİ

**B** **Aysunun tərtib etdiyi cədvəli oxuyun. Gün ərzində görüləcək işlərini necə planlaşdırdığına diqqət yetirin.**



Ad: *Aysu*
Soyad: *Kərimli*

**• Söz boğçası •**

- tərtib etmək
- əks etdirmək
- plan
- qrafik

Tarix: 22 oktyabr    Gün: Çərşənbə axşamı

| ***Vaxt*** | ***Görüləcək işlər*** |
|---|---|
| Səhər | Yuxudan oyanmaq |
| | İdman etmək, yuyunmaq |
| | Səhər yeməyi, məktəbə hazırlıq |
| | Məktəbə getmək |
| 8:00–12:00 | Dərs vaxtı |
| Günorta | Evə getmək |
| | Yuyunmaq, paltarı dəyişmək |
| | Nahar |
| | Rəqs dərnəyi |
| 5:00–6:00 | Ev tapşırıqları |
| Axşam | Asudə vaxt |
| | Şam yeməyi |
| | Asudə vaxt |
| Gecə | Yatmaq |

**Faydalı məsləhət**

Bəzən məlumatlar cədvəl şəklində təqdim edilir. Bu bizə məlumatları daha tez və asan başa düşməyə imkan verir.

**C** **Aşağıdakı təlimata uyğun olaraq gün rejiminizi əks etdirən cədvəl hazırlayın. Cədvəli sabahkı gün rejiminizə uyğun doldurun.**

GÜN REJİMİNİN TƏRTİBİ ÜZRƏ
**TƏLİMAT**

1. Səhifənin yuxarısında ayın tarixini və həftənin gününü qeyd edin.
2. Daha sonra iki sütundan ibarət cədvəl çəkin.
3. Sütunların yuxarısında “vaxt” və “görüləcək işlər” başlıqlarını yazın.
4. “Görüləcək işlər” sütununda gün ərzində planlaşdırdığınız işləri ardıcıllıqla yazın.
5. “Vaxt” sütununda hər bir işə ayırdığınız vaxtı qeyd edin.

**2 A** **Açar sözlərdən istifadə edərək şəkli təsvir edin.**

*Açar sözlər: məktəbli, müəllim, məktəb, dərs vaxtı, gecikmək*






**B** **Oxuyun. Baş qəhrəmanın davranışlarına diqqət edin.**

## FAYDALI GÜN

Fidan adlı bir qız var idi. Yoldaşları onu “gecikən Fidan” çağırırdılar. Fidan yuxudan gec qalxar, yavaş-yavaş geyinər, səhər yeməyini oynaya-oynaya yeyər, məktəbə də gecikərdi.

Bir gün əmisi qızı Sənubər onlara qonaq gəldi. Bu gün onlarda qalacaqdı. Səhər anası onları çağıranda Sənubər o dəqiqə qalxdı. Fidan da ona baxıb çarpayıdan durdu. Sənubər yuyundu, Fidan da yuyundu. Bir yerdə səhər yeməyini bitirib məktəbə hazırlaşdılar.

Fidanla Sənubər həmin günü bir yerdə keçirdilər. Fidan əmisi qızından geri qalmamağa çalışırdı. Bir də nə görsə, yaxşıdır? Hər şeyi vaxtında elədi ki! ···➔

Heç dərsə də gecikmədi. Ev tapşırıqlarını da vaxtında bitirdi. Lap məəttəl qalası iş idi.

Axşam Sənubər evlərinə getdi. Fidan isə xeyli düşündü: “Necə oldu ki, bu gün bütün işlərimi vaxtında yerinə yetirdim? Həm də heç gecikmədim!”



**C** **Aşağıdakı məktubu oxuyun. Hansı abzasda Fidanın sualına cavab var?**

salamlaşma → *Salam, Fidan.*

tanışlıq → *Mənim adım Nurcandır. Mən də ikinci sinifdə oxuyuram.*

məsləhət → *Fidan, əvvəllər mən də dərsə gecikirdim. Sonra gün rejimi tərtib etməyi öyrəndik. Bilirsən, işlərimizi düzgün planlaşdırsaq, heç vaxt gecikmərik.*

ümid, arzu → *Fidan, inanıram ki, bundan sonra sən də gün rejiminə əməl edəcəksən. Sənə dərslərində uğurlar arzulayıram.*

sağollaşma → *Sağ ol, Fidan.*

*Hörmətlə: Nurcan*

**Ç** **Aşağıdakı plan əsasında Fidana məktub yazın.**
**Məktubda onu düşündürən sualla bağlı məsləhətlər verin.**

**MƏKTUBUN PLANI**

*1. Salamlaşma*
*2. Tanışlıq (özünü təqdimetmə)*
*3. Məktubu yazmağın səbəbi*
*4. Məsləhətlər*
*5. Ümid və arzular*
*6. Sağollaşma*

**Aşağıdakı məsləhətlərdən istifadə edin.**

*1. Özün üçün gün rejimi tərtib et.*
*2. Tərtib etdiyin rejimə əməl elə.*
*3. Heç bir işi sonraya saxlama.*
*4. Hər işə uyğun vaxt ayır.*

**3 A** **Sözləri hecalara ayırıb yazın. Hansı sözlərdə bir saitdən ibarət heca var?**

*ana, əlamət, dost, ümid, məktəbli, vətən, asudə, ürək, meşə, iki*

**B** **Əsgərə yazılmış məktubu nəzərdən keçirin.**

- Hansı sətirlərin sonunda boş yer çox qalıb? Nə üçün?
- Hansı sətirlərin sonunda sözlər sıx yazılıb? Nə üçün?


Salam, əsgər!
Mənim adım Əlidir.
İkinci sinifdə oxuyuram.
Mən də gələcəyin bir əsgəriyəm.
Sənin kimi vətənin keşiyində
duracağam

• Bunları bilməliyik • **SÖZÜN SƏTİRDƏN SƏTRƏ KEÇİRİLMƏSİ**

Yazıda söz sətrin sonuna yerləşməyəndə onun bir hissəsi yeni sətrə keçirilir. Sözləri sətirdən sətrə keçirmək üçün aşağıdakı qaydalar var:

1. Söz heca bölgüsünə görə sətirdən sətrə keçirilir. Bu zaman defis (-) işarəsindən istifadə edilir. → *Mənim adım Nurcan-dır.*

2. Bir saitdən ibarət hecanı sətrin sonunda saxlamaq və ya yeni sətrə keçirmək olmaz. → *Nurcan gün rejiminə ~~ə~~-məl edirdi.*

**C** **Sətirdən sətrə keçirilməsi mümkün olmayan sözləri müəyyən edin.**

*kitab, azad, şəkil, əla, ələk, işarə, ata, cücə, zəng, asudə, əmi, nənə*

**Ç** **Mətni oxuyun. Sətirdən sətrə səhv keçirilmiş sözlərin düzgün keçirilmə qaydasını izah edin.**

*Fidan Nurcanın məktubunu oxudu. Gün rej-*
*imi haqqında çox düşündü. Anasının köməyi i-*
*lə özünə gün rejimi tərtib etdi. O, cədvəldə as-*
*udə vaxt bölmələrinə baxdı:*

*– Gör nə qədər asudə vaxtım var?!*

*Fidan indi asudə vaxtını səmərəli keçirmək haq-*
*qında düşünürdü.*

**4 A** **Gün ərzində nə qədər boş vaxtınız olur? Asudə vaxtınızı necə keçirirsiniz? Şəkillər əsasında asudə vaxt haqqında danışın.**





ASUDƏ VAXT – zəruri işlər yerinə yetiriləndən sonra qalan boş vaxtdır.





**B** **Lalə və Şahinin gündəliyindən verilmiş hissələri oxuyun. Məlumatlara diqqət edin.**

### *LALƏ*

***6 dekabr, cümə günü.***

*Bu gün anamla teatra getdik. Tamaşa çox maraqlı keçdi. Fotoaparatımla aktyorların şəklini də çəkdim.*

***7 dekabr, şənbə günü.***

*Bu gün dərs günü deyildi. Nənəm məni uşaq kitabxanasına apardı. Burada o qədər kitab var idi ki! “Alisa möcüzələr diyarında” kitabını seçdim. Artıq 10 səhifəsini oxumuşam.*

### *ŞAHİN*

***13 may, çərşənbə günü***

*Bu gün babamla bağdakı ağacları suladıq. Ağacların gövdəsinə əhəng çəkdik. Demə, qarışqalar əhəngdən qorxurmuş. Babamla vaxt keçirmək xoşuma gəlir. Elə məzəli əhvalatlar danışır ki!*

***29 may, cümə günü***

*Axır ki, babamla birlikdə başladığımız işi bitirdik. Quşlar üçün hazırladığımız dənliyi ağacdan asdım. Elə sevinirəm ki! İndi bağımızda çoxlu quşlar olacaq!*

**• Söz boğçası •**

- bazar ertəsi
- çərşənbə axşamı
- çərşənbə
- cümə axşamı
- cümə
- şənbə
- bazar

**C** **Lalə və Şahinə aid olan məlumatları seçin və müqayisə edin.**

*1. Böyüklərə kömək etməyi xoşlayır.*
*2. Ətraf aləmin qayğısına qalır.*
*3. Gələcəkdə fotoqraf ola bilər.*
*4. Ailəsi ilə vaxt keçirir.*

**Ç** **Aşağıdakı təlimata uyğun olaraq gündəlik tərtib edin.**

GÜNDƏLİYİN TƏRTİBİ ÜZRƏ
**TƏLİMAT**

1. Ayın tarixini, həftənin gününü qeyd edin.
2. Həmin gün baş vermiş hadisələri xatırlayın.
3. Bu hadisələrlə bağlı düşüncələrinizi yazın.

**5 A** **Diaqrama baxaraq sualları cavablandırın.**

## 2-ci sinif şagirdləri asudə vaxtlarını necə keçirirlər?




**Suallar:** *1. Sorğu neçənci sinfin şagirdləri ilə keçirilib?*
*2. Sorğu nə haqda keçirilib?*
*3. Şagirdlərin çoxu asudə vaxtını necə keçirir?*

**B** **İndi isə öz sinfinizdə belə bir sorğu aparın.**
**Sorğunun nəticələrinə görə diaqram qurun və müzakirə keçirin.**

*1. Sorğu anketi tərtib edin.*
*2. Anketi çoxaldın və hamıya paylayın.*
*3. Yığılan anketləri cavablar üzrə qruplaşdırın və diaqram tərtib edin.*
*4. Sorğunun nəticələrinə münasibət bildirin.*

SORĞU ANKETİ

*Sual: Sən asudə vaxtını necə keçirirsən?*

*Cavab:* ______________________________

______________________________

**C** **Sətirdən sətrə keçirilməyən sözləri seçib yazın.**
*odun, addım, ailə, şəhər, otaq, vaxt, oxumaq, oyun, bıçaq, əla, futbol*

**Ç** **Sözləri sətirdən sətrə keçirilməsi mümkün olan hallar üzrə hecalara ayırıb yazın.**
*Azərbaycan, kitabxana, oyuncaq, işarə*

**• Nümunə •**
Azər-baycan
Azərbay-can

**6 A** **Nağılı oxuyun. Nağılın hansı hissələri şəkillərdə təsvir olunub?**

## QƏRİBƏ QIZ



Leyla adlı bir qız tanıyırdım. Onun uşaqlarla oynamaqdan xoşu gəlmirdi. Bizim oynadığımız oyunları mənasız hesab edirdi.

Biz bütün günümüzü oynamaqla keçirirdik, Leyla isə bizə qoşulmurdu. Uşaqlarla oynamadığı üçün Leylanın heç dostu qalmamışdı. Onun başqa əyləncəsi var idi: mütaliə etmək. Bütün günü kitab oxuyurdu. Biz Leylanı anlamırdıq: axı nə qədər kitab oxumaq olar?!

**Leylaya və uşaqlara münasibət bildirin.**

Bir gün babam quyudan su çəkəndə cibindəki bıçaq sürüşüb suya düşdü. Babamın kefi yaman pozulmuşdu. Deyirdi ki, bu bıçaq ona atasından yadigar qalıb. Biz hamımız quyunun başına toplaşmışdıq. Babam hey fikirləşirdi. ···→



**• Söz boğçası •**
- mütaliə etmək
- quyudan su çəkmək
- maqnit
- heyran qalmaq

## Siz bıçağı quyudan necə çıxarardınız?

Leyla bizdən bir az kənarda, ağacın altında oturub yenə də kitab oxuyurdu. O, babama yaxınlaşıb dedi:

– Babacan, bir maqnit olsa, onu iplə quyuya salarıq. Bıçaq dəmir olduğu üçün maqnitə yapışacaq. Biz də onu dartıb çıxararıq.

Birazdan babam öz qiymətli bıçağını əlində tutmuşdu. O, Leylanı qucaqlayıb dedi:

– Əhsən sənə, ağıllı qızım!

Biz də yaman sevinirdik. Həm də Leylanın ağlına heyran qalmışdıq.

Bu hadisə ilə həyatımızda bəzi dəyişikliklər oldu...



**B** **Sizcə, uşaqların həyatında hansı dəyişikliklər baş verəcək? Şəklə baxaraq mətni tamamlayın.**



**C** **Aşağıdakı fikirlərin hansı ilə razısınız? Fikirlərinizi izah edin.**

*a) Leyla asudə vaxtını daha maraqlı keçirir.*

*b) Leylanın yoldaşları boş vaxtlarını daha maraqlı keçirir.*

**Ç** **Şəkildən də istifadə edərək mətndə verilmiş əsas fikri izah edin.**



# HİSSLƏR VƏ EMOSİYALAR

**1 A** **Şəkildəki uşaqların üz cizgilərinə baxın. Sağdakı sözlərə əsasən onların keçirdiyi hissləri müəyyən edin.**



*Rəşad* *Ləman* *Banu*

**a)** təəccüb, təəccüblənir
**b)** kədər, kədərlənir
**c)** qorxu, qorxur

**Nümunədən istifadə edərək uşaqların hissləri haqqında danışın.**

**• Nümunə •**

– *Fərid nə edir?*
– *Fərid sevinir.*
– *Fərid hansı hissi keçirir?*
– *Fərid sevinc hissi keçirir.*
– *Fəridin sevincinin səbəbi nə ola bilər?*
– *Yarışda qalib gəlib.*



**B** **Şeiri oxuyun. Obrazın hansı hisslər keçirdiyini müəyyən edin.**

## CIĞAL ÖSKÜRƏK

Xəstəlikdən iki gün
Süsən dərsə getmədi.
Məktəb üçün darıxdı,
Tez sağalmaq istədi.

“Dərslərimi öyrəndim,
Bəs indi mən nə edim?
Axı öskürək məni
Qoymur məktəbə gedim.

Anam bəkməz içirir,
Limon verir, sağalım.
Əlində qalmışam mən
Öskürəyin – cığalın”.

“Məktəb mənsiz darıxır”, –
Söylədi anasına.
Məktəbin rəsmin çəkib
Tez asdı yaxasına.

*Mina Rəşid*



**• Söz boğçası •**

- emosiya
- bəkməz
- cığal
- yaxa
- əlində qalmaq

**C** **Mətnlə şəkil arasında uyğunsuzluğu müəyyən edin.**

**Ç** **Şeirin hansı bəndləri Süsənin dilindən deyilir?**

**D** **Hadisələrin səbəbini yazaraq cümlələri tamamlayın.**

*Süsən məktəbə getmədi, çünki ... .*
*Süsən öskürürdü, ona görə də anası ... .*
*Süsən tez sağalmaq istəyirdi, çünki ... .*

**E** **Süsən məktəbə getmədiyi günlər haqqında gündəliyinə nə yazardı? Verilmiş plan əsasında Süsənin gündəlik qeydlərini yazın.**

*– Günü, ayı, ili qeyd edin.*
*– Süsənin başına gələn hadisələr haqqında məlumat verin.*
*– Bu hadisə haqqında Süsənin düşüncələrini, hisslərini qeyd edin.*

**2 A** **Mətni oxuyun. Hadisələrin baş verdiyi yerə diqqət edin.**

## QEYRİ-ADİ BEGEMOT



• Söz boğçası •

• səs-küylü • aylənmək
• parlaq • atılıb-düşmək

Bu gün çimərlik səs-küylü idi. Hippo hamıdan çox əylənirdi. Günəşin parlaq şüaları altında ılıq suya tullanır, sevinclə atılıb-düşürdü. Amma onun sevinci uzun sürmədi. O, sudan çıxıb qumluqda uzanmaq istəyirdi. Bu zaman gözü bir elana sataşdı:




Elanı oxuyan Hippo qorxuya düşdü. Dostu Leylək onu sakitləşdirdi:
– Narahat olma, boş şeydir. Xəstəxanaya birlikdə gedərik.
Hippo həyəcanla dedi:
– Yaman qorxuram. Yanımda dayanarsan?
– Əlbəttə. →

1. Həkimdən və ya iynədən qorxan dostunuzu siz necə sakitləşdirərdiniz?
2. Hekayənin ardını təxmin edin. Sizcə, bundan sonra hadisələr necə davam edəcək?

Hippo ilə Leylək birlikdə həkimin qəbuluna gəldilər. Hippo qorxudan ağappaq ağarmışdı.

Həkim onu görüb təəccübləndi:

– İlk dəfədir ki, ağ begemot görürəm. Yoxsa iynədən qorxursan?

Leylək tez cavab verdi:

– Xeyr, bu, qeyri-adi begemotdur.

O istədiyi vaxt boz və ya ağ olur.

Həkim elə iynəni hazırlayırdı ki, Hippo otaqdan yox oldu. Hamı onu axtarırdı.

Həkim narahat oldu:

– Təcili Hipponu tapmaq lazımdır. Hər tərəfi sarılıq xəstəliyi bürüyüb. Əgər peyvənd edilməsə, sarılıq tutar.



**B** **Mətndən aşağıdakı fikirləri təsdiq edən cümlələri seçin.**

*– Keçirdiyimiz hisslər rəngimizin dəyişməsinə səbəb olur.*
*– Peyvənd insanları yoluxucu xəstəliklərdən qoruyur.*

**C** **Nöqtələrin yerinə uyğun gələn sözləri yazmaqla cümlələri köçürün.**

qorxu | qorxurdu | ağarmışdı

*Hipponun rəngi ... .*
*Çünki o ... .*
*Hippo ... hissi keçirirdi.*



təəccübləndi | təəccüb | görməmişdi

*Həkim çox ... .*
*Çünki o, ağ begemot ... .*
*Həkim ... hissi keçirdi.*



**3 A** **Verilmiş sözləri cədvəl üzrə qruplaşdırın.**

*isti, böyük, çimərlik, iki, üzmək, günəşlənmək, çox, baxmaq, ağ, təmiz, otaq, həkim, mavi, su, işıqlı, sağaltmaq, heyvanlar, bir*

| ad bildirən | əlamət bildirən | say bildirən | hərəkət bildirən |
|---|---|---|---|
| | | | |

**B** **"Qeyri-adi begemot" mətninə aid şəkillərə baxın. Çimərliyi və həkimin otağını təsvir edin. Təsvir üçün "A" tapşırığında verilmiş sözlərdən istifadə edə bilərsiniz.**

• Bunları bilməliyik • **ƏLAMƏT BİLDİRƏN SÖZLƏRİN MƏNA NÖVLƏRİ**

Təsvir zamanı əlamət bildirən sözlərdən istifadə olunur. Bu sözlər ölçü, forma, rəng, dad və sairə bildirir.

***Ölçü:*** *böyük, kiçik, uzun, qısa, qalın, nazik, enli, ensiz*
***Forma:*** *yumru, dairəvi, oval, uzunsov, əyri*
***Rəng:*** *qırmızı, yaşıl, mavi, bənövşəyi, göy, sarı, ağ, qara, narıncı*
***Dad:*** *şirin, acı, turş, duzlu, şit*

**C** **Əlamət bildirən sözləri oxuyun. Əlamətlərə uyğun meyvənin adını yazın.**

*1) kiçik, oval, sarı, turş* ➡ ***?***
*2) balaca, yumru, narıncı, turştəhər* ➡ ***?***
*3) qabığı yaşıl, zolaqlı, içi qırmızı* ➡ ***?***

**Ç** **Qruplarla iş** **Hər bir əlamətə uyğun ad bildirən 3 söz yazın.**

• Nümunə •
*geniş* ⟶ *küçə, park, otaq*

1-ci qrup: *qalın, acı, iri, qəhvəyi;*
2-ci qrup: *yumru, sıx, narıncı, şirin;*
3-cü qrup: *yaşıl, hündür, duzlu, əyri;*
4-cü qrup: *turş, mavi, xırda, dairəvi.*

**4 A** **Şəkil əsasında begemotu və onun otağını təsvir edin. Hippo ilə dostu Leylək arasındakı söhbətin məzmununu təxmin edin.**

**B** **Mətni oxuyub təxminlərinizlə müqayisə edin.**

Səhəri gün Leylək Hipponun evinə getdi. O, yataqda uzanmışdı. Halı yox idi. Rəngi də sapsarı olmuşdu. Leylək təəccübləndi:

– Ay aman, sənə nə olub?! Limon kimi saralmısan. Sapsarısan!

Leylək dərhal həkimi köməyə çağırdı. Tezliklə həkim gəldi. Leylək:

– Həkim, Hippo niyə sapsarı olub?

– Axı siz özünüz dediniz ki, o, xüsusi begemotdur. İstədiyi vaxt boz, bəzən də ağ olur.



Leylək başını aşağı saldı:

– Xeyr, doktor, Hipponun rəngi qorxudan ağarmışdı.

– Bəs belə?! Deməli, indi də xəstəlikdən saralıb.



Tezliklə təcili yardım maşını gəldi. Hipponu xəstəxanaya yerləşdirdilər.

Dostu Leylək tez-tez ona baş çəkirdi. Bir dəfə Hippo dedi:

– Dostum, yataqda uzanmaq darıxdırıcıdır. Heç olmasa, bir nağıl danış.

Leylək nağıl söyləməyə başladı:

– Biri vardı, biri yoxdu, nəhəng bir begemot vardı. O, iynədən qorxurdu.

Elə bu zaman həkim içəri daxil oldu. Qızarmış Hipponu görüb təəccüblə dedi:

– Hippoya nə olub?! O, boz, ağ, sarı idi, indi isə qıpqırmızıdır. Bu, doğrudan da, qeyri-adi begemotdur.

– Xeyr, həkim. Sadəcə, iynədən qorxduğu üçün çox utanır.

*Vladimir Suteyev*



**C** **Yuxarıdakı şəkildə obrazların üz ifadələrinə, əl-qol hərəkətlərinə diqqət edin. Mətndən şəklə uyğun hissəni oxuyun.**

**Faydalı məsləhət** **MİMİKA VƏ JEST**

• Hiss və emosiyalardan asılı olaraq üzümüzün ifadəsi dəyişir. Bu, **mimika** adlanır.



• Hiss və emosiyalarımızı bəzən əl-qol hərəkətləri ilə də bildiririk. Buna isə **jest** deyilir. Mimika və jestlərdən istifadə etməklə fikir və duyğularınızı daha qabarıq çatdıra bilərsiniz.



**Ç** **Rollu oyun. Hipponun keçirdiyi hissləri yadınıza salın. Mimika və jestlərin köməyi ilə həmin hissləri nümayiş etdirin.**

**D** **Verilmiş sözləri cədvəl üzrə qruplaşdırın.**

*sevinc, sevincli, sevinirdi, həyəcan, həyəcanlı, həyəcanlanırdı, qorxu, qorxaq, qorxurdu, utanc, utancaq, utanırdı*

| ad bildirən | əlamət bildirən | hərəkət bildirən |
|---|---|---|
| | | |

**5 A** **Xəstə olanda biz kimə müraciət edirik? Həmin peşə haqqında danışın.**

**B** **Mətni oxuyun. Obrazın təsvirinə diqqət edin.**

## NƏRİMAN NƏRİMANOV HAQQINDA XATİRƏLƏR

**1** Mən balaca olanda onu öz gözlərimlə görmüşdüm. Ortaboylu, səmimi, mehriban bir insan idi. Köynəyi qar kimi ağ, kostyumu ütülü, səliqəli və təmiz olardı. Xalq ona "doktor Nəriman" deyərdi.

**• Söz boğçası •**

- xatirə
- səmimi
- müalicə etmək
- yazıçı
- körpələr evi

**2** Xəstə uşaqları müalicə edir, onlara dərman, şirniyyat, şəkilli kitablar verirdi. Axı o həm də yazıçı idi. Doktor Nəriman hamını diqqətlə dinləyir, hamıya kömək edirdi. Uşaqlar üçün çoxlu məktəb, körpələr evi və uşaq bağçaları açdırırdı.

**3** Doktor Nəriman tez-tez məktəbə gələrdi. Bizə şeir və nəğmə oxudar, dərslərimizi yoxlayardı. Hər dəfə keçmişdən, gələcəkdən maraqlı söhbətlər edərdi. Doktor Nəriman bizim üçün ən əziz insanlardan biri idi.

*Mirvarid Dilbazi*



**C** **Cümlələri uyğun abzasların sonuna əlavə edin.**

*a) Onu görcək sevinər, onun ətrafına toplaşardıq.*
*b) Çünki o, həkim idi.*
*c) Kəndlərdən balaca oğlan və qızları Bakıdakı həmin məktəblərə gətirirdi.*

**Ç** **Aşağıdakı fikirləri əsaslandırın. Bunun üçün mətndən uyğun cümlələri oxuyun.**

*a) Nəriman Nərimanov səliqəli insan idi.*
*b) O, uşaqlarla vaxt keçirməyi sevirdi.*
*c) Nəriman Nərimanov uşaqların savadlı olmağı üçün çalışırdı.*

**Faydalı məsləhət** OBRAZIN TƏSVİRİ

| | • Nümunə • |
|---|---|
| • Obrazla tanış edin (oğlan, qız, həkim, ana və sairə) | Samir mənim dostumdur. |
| • Obrazın xarici görünüşünü təsvir edin (ucaboy, qısaboy, arıq, kök, sarısaçlı, qaragözlü və sairə) | O, ucaboylu, arıq oğlandır. Qara, qıvrım saçları həmişə gözlərinin üstünə tökülür. |
| • Obrazın xarakterini təsvir edin (ağıllı, xeyirxah, utancaq, tənbəl və sairə) | Samir bərkdən danışmağı xoşlayır. Sinifdə olanda səsi dəhlizin o başından belə eşidilir. |

**D** **Mətnin məzmununa əsasən aşağıdakı plan üzrə Nəriman Nərimanov obrazını təsvir edin.**

- Obrazla ümumi tanışlıq
- Xarici görünüşü
- Xarakteri

**6 A** **Təsvirlərə əsasən obrazların adını müəyyənləşdirin. Həmin obrazlar hansı mətnlərdə iştirak edib?**

**1.** *O, məktəbli qızdır. Şabalıdı saçlarına hörük çox yaraşır. Məktəbini, sinif yoldaşlarını çox istəyir.*

**2.** *Bizim bu qəhrəmanımız qeyri-adiliyi ilə seçilir. Onun nəhəng bədəni var. Amma buna baxmayaraq çox yumşaq ürəyi var.*

**3.** *Bu, maraqlı bir quşdur. Digər quşlar arasında özünün uzun, nazik ayaqları ilə seçilir. Çox vəfalıdır. Çətin günlərdə dostlarını tək buraxmaz.*

**4.** *O, xalqın sevimli həkimidir. Həm də yazıçıdır. Səliqəli görkəmi və mehriban xarakteri ilə diqqəti cəlb edirdi. Xalqının savadlanması, uşaqların təhsil alması üçün çox çalışırdı.*

## B Açar sözlərdən istifadə edərək şəkilləri təsvir edin.

*HADİSƏLƏRİN BAŞ VERDİYİ YER*

**1** *azarkeşlər, səs-küylü stadion, böyük meydan*



*ƏSAS OBRAZLAR*

**2** *azarkeş, seyr etmək, komanda*



*OBRAZLARIN QARŞILAŞDIĞI HADİSƏ*

**3** *uduzmaq, qalib gəlmək*




*OBRAZLARIN KEÇİRDİYİ HİSSLƏR*

**4** *sevinmək, kədərlənmək, fəxr etmək, alqışlamaq*



## C Əksmənalı sözləri uyğunlaşdırın. Onlara aid cümlələr qurun.

| | |
|---|---|
| *1) acıqlı* | *A) şən* |
| *2) yorğun* | *B) cəsarətli* |
| *3) qəmli* | *C) gümrah* |
| *4) qorxaq* | *D) mülayim* |

**• Nümunə •**

*Arzu bütün günü işlədiyi üçün yorğundur.*
*Yaxşı istirahət edən Əli gümrah görünür.*

**• Bunları bilməliyik •** **ƏKSMƏNALI SÖZLƏRİN MÜƏYYƏN OLUNMASI**

**Əksmənalı sözlər eyni suala cavab verir:**

| sülh – müharibə | ağ – qara | az – çox | oturmaq – durmaq |
|---|---|---|---|
| nə? | necə? | nə qədər? | nə etmək? |

## Ç Cümlələri oxuyun. Ad, əlamət, say bildirən əksmənalı sözləri müəyyən edin.

*1. Dost başa baxar, düşmən ayağa.*
*2. Uzaq qohumdansa yaxın qonşu yaxşıdır.*
*3. Dost min isə azdır, düşmən bir isə çoxdur.*

# İDMAN

**1 A Şəkildə gördüyünüz idman yarışları haqqında danışın. Daha hansı yarışları tanıyırsınız?**







**B Mətni oxuyun. Olimpiya oyunları haqqında məlumatlara diqqət edin.**

## QƏLƏBƏ

• Söz boğçası •
- müddət
- toplantı
- hünər
- nümayiş etdirmək

Yunanıstan dövləti uzun müharibələr nəticəsində zəifləyirdi. Hökmdar narahat idi. O, Olimp dağının ətəyində toplantı keçirdi. Üzünü xalqa tutub dedi:

– Belə getsə, ölkəmiz məhv olacaq. İnsanlar arasında sülh yaratmaq lazımdır.

Ağsaqqallardan biri dilləndi:

– İnsanlar arasında sülh yaratmağın yollarından biri də idmandır. Qoy cavanlar hünərini döyüşlərdə deyil, idman yarışlarında göstərsinlər.



Müdrik ağsaqqalın məsləhəti bəyənildi.

Hökmdar əmr etdi:

- Yunanıstanda 5 günlük idman yarışları keçirilsin.
- Yarışlar keçirilən müddətdə döyüşlər dayandırılsın.
- Yarışlarda yalnız kişilər iştirak etsin.

Bu xəbəri eşidən cavanlar bacarıqlarını nümayiş etdirməyə tələsdilər.

Gənc Milon da yarışlarda iştirak edəcəkdi. Gecə-gündüz məşq edirdi. Anası oğluna baxır, qalib gəlməsi üçün dua edirdi. O, oğlunun çıxışını izləmək istəyirdi. Lakin hökmdarın əmrini xatırlayıb heyifsilənirdi.

Nəhayət, həmin gün gəlib çatdı. Milon yarışa yollandı. Ana kişi paltarı geyinib yarış meydanına gəldi.

Bu yarışda Milon Olimpiya çempionu oldu. Sevincini gizlədə bilməyən ana oğlunu qucaqlamaq üçün meydana atıldı. Bu zaman başındakı papaq yerə düşdü. Qadının hörükləri göründü. Hamı təəccüb və qorxu içində ona baxdı. Ana hökmdarın əmrini pozmuşdu. Deməli, cəzalanacaqdı.





Hamının gözü hökmdarda idi. Hökmdar xeyli düşündü. Övladının uğuruna sevinən bir ananı cəzalandırmaq ədalətli qərar olmazdı. O gündən qadınlara da Olimpiya oyunlarını izləməyə icazə verildi.

**Söz boğçası**

heyifsilənmək • övlad • uğur • cəzalandırmaq • çempion

**C** **Müasir dövrdə keçirilən beynəlxalq idman yarışları niyə Olimpiya oyunları adlandırılır?**

**Ç** **Aşağıdakı cümlələri oxuyun. Mətndə fərqləndirilmiş cümlələrdən çıxış edərək həmin fikirləri əsaslandırın.**

*1. Hökmdar ədalətli idi.*
*2. Hökmdar ədalətsiz idi.*

**D** **Mətndən hökmdarın əmrini bildirən cümlələri seçin. Sözlərin sətirdən sətrə keçirilməsi qaydalarına əməl etməklə köçürün.**

**2 A** **Hansı cümlədə oxucunun mətndəki hadisəyə münasibəti ifadə olunur?**

*Qadın hökmdarın əmrini pozmuşdu.*
*Məncə, hökmdar ədalətli hərəkət etdi.*

• Bunları bilməliyik • **FAKT VƏ MÜNASİBƏT**

• Fakt həqiqətdir. Onu sübut etmək mümkündür.



*<u>Fakt</u>: Şahmat taxtasında 64 xana olur.*

Şahmat taxtasındakı xanaları saymaqla biz bu faktı sübut edə bilərik.

• Müəyyən mövzu ilə bağlı fikirlərimizi, duyğularımızı ifadə etməklə biz münasibətimizi bildiririk.



*<u>Münasibət</u>: Şahmat ən maraqlı idman növüdür.*

**B** **Cümlələrin fakt, yoxsa münasibət bildirdiyini müəyyənləşdirin.**

- Futbol komanda oyunudur.
- Xokkey oyunu futboldan çətindir.
- Mən şahmatı xoşlayıram.
- Üzgüçülük su idmanı növüdür.

**C** **Müəllimin oxuduğu mətni dinləyin. Şəkillərə baxın. Dinlədiyiniz faktların hansı Olimpiya simvoluna aid olduğunu müəyyən edin.**



**Ç** **Məlumatların hansı Olimpiya simvoluna aid olduğunu müəyyən edin.**

- Xalqlar arasında dostluğa işarədir.
- Olimpiya iştirakçılarına mesaj göndərir.
- Olimpiya oyunlarının vətəninin Yunanıstan olduğuna işarə edir.
- Zeytun ağacının budaqlarının qızıldan da üstün tutulduğunu bildirir.

**Faydalı məsləhət**

- Münasibət bildirərkən bu sözlərdən istifadə edə bilərsiniz:
*mənсə, bizcə, fikrimcə, mənə görə*

## D Qrup işi

**Olimpiya simvolları haqqında bir fakt və bir münasibət ifadə edən cümlələr yazın.**

***I qrup:*** *Olimpiya halqaları*
***II qrup:*** *Olimpiya çələngi*
***III qrup:*** *Olimpiya şüarı*
***IV qrup:*** *Olimpiya məşəli*

**• Nümunə •**



***FAKT*** *Olimpiya halqalarında qırmızı rəng var.*

***MÜNASİBƏT*** *Mənсə, Olimpiya halqaları ən maraqlı simvoldur.*

**3 A** **Müəllimin oxuduğu mətni dinləyin.**
**Şəkillər dinlədiyiniz hansı məlumatları əks etdirir?**





**B** **Oxuyun. Əsas obrazın xarakterinə diqqət edin.**

## UĞURUN SİRRİ

**1** Xəstəxana otağı sükuta qərq olmuşdu. Çarpayıda ucaboylu, möhkəm bədənli, yaraşıqlı bir oğlan uzanmışdı. Qara yumşaq saçları alnına tökülmüşdü. O, Qarabağ döyüşlərində başından yaralanmışdı. İndi hamı bu qəhrəman üçün narahat idi. Həkimlər onun sağalacağına inanmırdılar. Onlar deyirdilər:

– İlham idmançı olduğu üçün ürəyi hələ də mübarizə aparır.



**• Söz boğçası •**

- sükuta qərq olmaq
- mübarizə aparmaq
- görmə qabiliyyəti
- nikbin
- ümidini itirmək

***

Anası oğlunun əlindən tutub oyanması üçün dua edirdi:

– Oğlum, İlham, oyan, anan qurban!

Birdən İlhamın zəif səsi eşidildi:

– Mənə soyuqdur.

İlham oyanmışdı. Lakin gözlərini açanda hər yer qaranlıq idi.

**2** Görmə qabiliyyətini itirmiş 19 yaşlı idmançı çətin günlər yaşayırdı. Həmişə idman haqqında düşünürdü. Onun idmana qayıtmaq istəyi hamıya xəyal kimi görünürdü. O isə nikbin insan idi. Heç vaxt ümidini itirmirdi. •••→

**C** **Sizcə, İlham idmana qayıtmaq istəyini necə həyata keçirə bilərdi?**

**Ç** **"Uğurun sirri" mətnindən İlhamın xarici görünüşünü və xarakterini təsvir edən sözləri yazın. Onlara yaxınmənalı sözlər əlavə edin.**

**4 A “Uğurun sirri” mətninin davamını oxuyun.**
**İlhamın seçimi ilə öz təxminlərinizi müqayisə edin.**

**3** İlham Gənclər və İdman Nazirliyinə müraciət etdi. Ona paralimpiya üzrə cüdo idman növü ilə məşğul olmağı təklif etdilər.



Dörd il fasilədən sonra İlham yenidən məşqlərə başlamışdı. O, var gücü ilə məşq edirdi. Tezliklə yarışlarda iştirak etməyə başladı. Yarışların çoxunda uğur qazandı. Nəhayət, Yunanıstanda keçirilən Paralimpiya oyunlarının çempionu oldu. Sonralar İlham Zəkiyev dünya və Avropa yarışlarında da dəfələrlə qızıl medal qazandı.

İlhamın möhkəm iradəsi, özünə inamı ona uğur gətirdi.

**B Aşağıda verilmiş başlıqları mətnin nömrələnmiş hansı hissəsinə aid etmək olar?**

- Qalibiyyət
- Ananın duası
- Gələcəyə inam

**• Söz boğçası •**
- paralimpiya
- çempion
- cüdo

**C Cümlələrin fakt (F), yoxsa münasibət (M) bildirdiyini müəyyən edin.**

1. *İlham Qarabağ döyüşlərində ağır yaralanmışdı.* ••••••••• **F/M**
2. *Hamı onun üçün narahat idi.* ••••••••••••••••••••••• **F/M**
3. *Həkimlər onun sağalacağına inanmırdılar.* ••••••••••••• **F/M**
4. *İlham Zəkiyev dəfələrlə Paralimpiya çempionu olub.* ••••••• **F/M**
5. *Onun idmana qayıtmaq istəyi hamıya xəyal kimi görünürdü.* •• **F/M**

**Ç Mətndən əsas obraz haqqında verilən məlumatları bir daha diqqətlə oxuyun. Aşağıdakı plan üzrə bu obrazı təsvir edin.**

- Obrazla ümumi tanışlıq
- Xarici görünüşü
- Xarakteri

**5 A Məktubu oxuyun. Abzaslara diqqət edin.**



*Salam, əziz dost!*

*Necəsən? Ümid edirəm ki, bütün işlərin qaydasındadır. Əslində, mən səni yaxşı tanıyıram. Sən məktəblisən. İkinci sinifdə oxuyursan. Hə, bir də idmanla məşğul olmaq istəyirsən. Amma nədənsə çəkinirsən. Sadəcə özünə inan, idmanla məşğul olmaq hamının haqqıdır.*

*Səni Uşaqların Paralimpiya təşkilatına dəvət edirəm. Burada sevdiyin idman növü ilə məşğul ola bilərsən. Eyni zamanda dostlar qazanarsan.*

*Hələlik. Yarışlarda görüşmək ümidi ilə sağollaşıram.*

*Hörmətlə: Paralimpiya çempionu İlham Zəkiyev*

**B Sualları cavablandırın.**

- Məktub kimə ünvanlanıb?
- Məktubun müəllifi kimdir?
- Məktubda hansı məsləhətlər verilib?

**• Söz boğçası •**

- çəkinmək
- haqq
- təşkilat

**C Hansı cümlələrdə məktubun müəllifi şagirddə ümid və özünəinam yaratmağa çalışır?**

**Ç Şəklə baxaraq məktubda mavi rənglə verilmiş cümləni izah edin.**

**D Məktub müəllifinin şagirdə münasibətini hansı sözlə ifadə etmək olar?**

*A) özündənrazılıq B) qayğıkeşlik C) qəzəb*

**E Verilmiş sözləri cədvəl üzrə qruplaşdırın.**

*ümid, ailə, radio, əlamət, ənənə, dairə, səadət, Amerika*

**• Nümunə •**

| sözlər | hecalara ayrılması | sətirdən sətrə keçirilməsi |
|---|---|---|
| ailə | a-i-lə | ai-lə |

# Ümumiləşdirici təkrar

**6 A** **Hərflərin əlifbadakı sıra nömrəsindən istifadə edərək sözləri oxuyun. Bölmənin hansı fəslinə aid olduğunu müəyyən edin.**

**27|7|25|30|14|24**

**19|7|16|27|28|2**

**23|1|24|1|18|14|19|23|14|31|1**

| | |
|---|---|
| 1 | İDMAN |
| 2 | GÜN REJİMİ |
| 3 | HİSS VƏ EMOSİYALAR |

**B** **Tapmacaları oxuyun. Açmasını təxmin edin.
Əlamət bildirən hansı sözlər cavabları tapmaqda sizə kömək oldu?**

1 *Yumru təkər,
Əllərdə gəzər.*

2 *Üstü yaşıl məxmərdi,
İçi şirin şəkərdi.*

3 *Yer altında sarı biz.*

4 *Fındıqdan iri,
Yumurtadan balaca.*

a 

b 

c 

ç 

**Seçdiyiniz əlamət bildirən sözləri cədvəldə qruplaşdırın.**

| ölçü | forma | rəng | dad |
|---|---|---|---|
| | | | |

**C** **Cümlələri oxuyun. Nümunəyə uyğun cədvəl qurun.
Cümlələrin nömrələrini cədvəlin uyğun bölmələrinə yazın.**

1. *Hiss və emosiyalara uyğun üzümüzün ifadəsi dəyişir.*
2. *İşlərimi planlaşdırmayanda narahat oluram.*
3. *Hippo iynədən qorxurdu.*
4. *Qələbə qazanacağına inanıram.*
5. *İlk Olimpiya oyunları Yunanıstanda keçirilib.*
6. *Asudə vaxt zəruri işlər yerinə yetiriləndən sonra qalan boş vaxtdır.*

| | Fakt | Münasibət |
|---|---|---|
| Gün rejimi | | |
| Hisslər və emosiyalar | 1 | |
| İdman | | |

# 3 TƏBİƏTİN SİRLƏRİ

**1 A Şəkillərə baxın və suallara cavab verin.**

- Bitkilərin faydaları haqqında nə bilirsiniz?
- Sizcə, zooparklar nə üçün yaradılıb?
- Hansı təbiət hadisələri haqqında məlumatınız var?



**B** **Şəkildə gördükləriniz haqqında danışın.**



**C** **Mətni oxuyun. Mətndəki obrazların adlarını qeyd edin.**

## KİM DAHA GÜCLÜDÜR?

Bir gün Günəş və Külək bir-biri ilə mübahisə etdilər. Külək dedi:

— Mən daha güclüyəm. İnsanlar məndən qorxurlar.

Günəş onun sözlərinə güldü.

Bu zaman yol ilə bir kişi gedirdi. Onun əynində pencək var idi. Külək Günəşə dedi:

— Gəl gücümüzü yoxlayaq. Kim kişinin əynindən pencəyi çıxarsa, o da güclüdür.

Onlar razılaşdılar. Külək şiddətlə əsməyə başladı. Bu zaman kişi bərk-bərk pencəyinə büründü.

Bundan sonra Günəş öz gücünü göstərməyə başladı. Onun şüaları hər yeri qızdırdı. Kişi istidən pencəyini soyundu. Bunu görən Günəş qürurla gülümsədi.

*Konstantin Uşinski*

• Sözlərin yazılışı •

**"Ü", yoxsa "U"**

| Doğru | Yanlış |
|---|---|
| şüa | şua |
| qürur | qurur |
| mübahisə | mubahisə |
| nümunə | numunə |
| zürafə | zurafə |

**Ç** **Şəkillərə diqqətlə baxın. Hansı şəkil mətnin sonluğuna uyğundur?**



**2 A Mətni oxuyun. Günəş haqqında hansı yeni məlumatları öyrəndiniz?**

### GÜNƏŞ



Aydın bir səhər vaxtı başınızı qaldırıb səmaya baxın. Siz parlaq şüa saçan Günəşi görəcəksiniz. Əslində, Günəş ulduzdur. Gecə göydə gördüyümüz digər ulduzlar kimi. Günəş onlara nisbətən Yerə daha yaxındır. Ona görə də daha böyük görünür.

Günəş Yerə istilik və işıq verən səma cismidir. Günəş olmasa, Yer üzündə heç bir canlı yaşaya bilməz. Hər tərəf qaranlıq olar.

**B “Günəş” mətninə dair üç sual tərtib edin.**

**C Oxuduğunuz mətnlərdən hansı Günəş haqqında daha çox məlumat verir?**

• Bunları bilməliyik • **BƏDİİ VƏ İNFORMATİV MƏTNLƏR**

- Mətnlərin iki əsas növü var: **bədii mətn** və **informativ mətn**.
- **Bədii mətnlər** – şeir, nağıl, hekayə və sairədir. Bədii mətndə heyvanlar, quşlar, hətta cansız əşyalar da dil açıb danışa bilər.
- **İnformativ mətnlər –** bilik, məlumat vermək üçün yazılmış mətnlərdir; faktlar üstünlük təşkil edir.

**Ç Mətnlərdən nümunələr gətirməklə verilmiş fikirləri əsaslandırın.**

*1. “Kim daha güclüdür?” bədii mətndir.*
*2. “Günəş” informativ mətndir.*

**D Suallar əsasında fəsillər haqqında informativ mətn hazırlayın.**

*1. İlin fəsilləri hansılardır? 2. Hansı fəsillərdə gecə ilə gündüz bərabərləşir? 3. Fəsillərdə hava necə dəyişir?*



**3 A** **Tapmacaları dinləyin. Varlıqların əlamətlərinə görə tapmacaların cavabını tapın və şəklini göstərin.**







**B** **Mətni oxuyun. Suallara cavab verin.**

## GÜNƏBAXANLAR

İyul ayı idi. Tarlada çoxlu günəbaxan var idi. Onlar böyüyüb çiçək açmışdılar. Günəbaxanların üzü həmişə Günəşə sarı idi. Amma balaca bir günəbaxan Günəşə sarı baxmırdı. Onun bu hərəkətinə digər günəbaxanlar təəccübləndilər:

— Sən niyə Günəşə baxmırsan?

— Mən Günəşdən küsmüşəm. Onunla danışmıram.

— Axı niyə?

— Çünki gecə yuxudan oyananda Günəş məni heç isitmədi. O elə solğun idi ki... Siz isə deyirsiniz: "Günəş bizə daim istilik verir".

— O, Günəş deyil ki!

— Nədir bəs?

— O, Aydır. Ay istilik vermir.

— Bəs niyə işıq saçırdı? Yanında da balaca-balaca dostları vardı.

Bu sözləri eşidən günəbaxanlar gülüşdülər.

*İsmayıl Bilgin*



- **Sizcə, hadisə ilin hansı fəslində baş verir?**
- **Mətndə hansı səma cisimlərinin adları çəkilir?**
- **Ayın yanındakı balaca dostları kim idi?**

**C** **Siz balaca Günəbaxana onun səhvini necə izah edərdiniz?**

**Ç** **Günəbaxan haqqında araşdırma aparın və informativ mətn hazırlayın.**

**4 A** **“Günəbaxanlar” mətnində mavi və qırmızı rənglə verilmiş cümlələrin hansı obrazlara aid olduğunu müəyyən edin.**

**• Bunları bilməliyik •** **DİALOQ**

• İki və daha çox obraz arasındakı söhbətə **dialoq** deyilir. Yazıda hər bir obrazın nitqi yeni sətirdən başlayır və qarşısında **tire** (—) işarəsi qoyulur; məsələn:

*Divlə Cırtdanın dialoqu:*

*– Kim yatmış, kim oyaq?*
*– Hamı yatmış, Cırtdan oyaq.*
*– Cırtdan nə üçün oyaq?*
*– Çünki anası hər gecə ona qayğanaq bişirər, yedirib yatırardı.*

**B** **Dinlədiyiniz mətndən aşağıdakı parçanı köçürün. Buraxılmış durğu işarələrini yazın.**

*Günəş dedi:*
*— Sənə nə olub, Günəbaxan? Yaman kədərli görünürsən.*
*(   ) Mən səndən küsmüşəm(   )*
*(   ) Nə üçün(   )*
*(   ) Gecə oyananda yanımda deyildin(   )*
*(   ) Axı Ay və ulduzlar yanında idi(   )*

**C** **Qruplarla iş** **Şəklə baxın və dialoq qurub yazın.**



**Ç** **Mavi rənglə verilmiş sözləri düzgün yazmaqla cümlələri köçürün.**

*Günəbaxanlar mubahisə etdilər.*
*Balaca günəbaxan qururla göyə baxdı.*
*Zurafə ən uzunboy heyvandır.*
*Aytən mətndən numunə seçdi.*

## 5 A Şəkilləri nəzərdən keçirin. Onların ortaq xüsusiyyətini müəyyən edin.







## B “Su damcısının hekayəsi”ni dinləyin. Mətn və aşağıdakı şəkil əsasında təbiətdə suyun dövranı haqqında danışın.

**•Söz boğçası•**
- dövr etmək
- yağıntı
- buxar



## C Cümlələrlə işarələri uyğunlaşdırın.

1. *Hava günəşli olacaq.*
2. *Hava tutulub-açılacaq.*
3. *Qar yağacaq.*
4. *Yağış gözlənilir.*
5. *Hava buludlu olacaq.*
6. *İldırım çaxacaq.*

a


b


c


ç


d


e


**Ç** **Cümlələri uyğun gələn hərəkət bildirən söz əlavə etməklə oxuyun.**

| | |
|---|---|
| *Dünən güclü yağış* | *yağacaq.* |
| *İndi güclü yağış* | *yağdı.* |
| *Sabah güclü yağış* | *yağır.* |
| *Dünən zəif külək* | *əsəcək.* |
| *İndi şiddətli külək* | *əsdi.* |
| *Sabah bərk külək* | *əsir.* |

• Bunları bilməliyik • **HƏRƏKƏTİN ZAMANI**

• Hər bir hərəkət keçmişdə, indi və gələcəkdə baş verə bilər. Buna **hərəkətin zamanı** deyilir.

Keçmiş zaman: *Su buxarı göyə qalxdı.* (nə etdi?)

İndiki zaman: *Bulud Günəşin qarşısını kəsir.* (nə edir?)

Gələcək zaman: *Havalar istiləşəcək.* (nə edəcək?)

**D** **Nöqtələrin yerinə hərəkət bildirən uyğun söz artırmaqla cümlələri köçürün.**

*artdı* *batacaq* *donur* *əriyəcək*

*Bir azdan günəş ... .*

*Şaxtalı havada su ... .*

*Yağış yağdı, çayın suyu ... .*

*Gün çıxan kimi qar ... .*

**E** **Üç gün ərzində hava durumu haqda məlumatları izləyin. Nümunəyə əsasən təqdimat hazırlayın.**

| Tarix | Həftənin günləri | Hava durumu | |
|---|---|---|---|
| | | İşarəsi | Sözlə ifadəsi |
| *18 noyabr* | *Bazar ertəsi* |   | *Hava tutulub-açılacaq. Yağış yağacaq.* |

## 6 A Sudan hansı məqsədlərlə istifadə olunur? Şəkillər üzrə danışın.






## B Şeiri oxuyun. Tanış olmayan sözləri qeyd edin.

### SU

**Söz boğçası**
- qəribsəmək
- okean
- düz
- yağıntı
- balina
- qovrulmaq
- yamac
- çeşmə

1 Möcüzələr yaradır
Həyatda hər damla su.
Çiçək olub açılır
Yağışın hər damlası.

2 Bir həyat çeşməsidir
Çaylar, göllər, bulaqlar.
Su olmasa, neyləyər
Balinalar, balıqlar?

3 Su olmasa, quruyar
Kollar, güllər, ağaclar.
Gün altında qovrular
Çiçəklənən yamaclar.

4 Susuz qəribsəyərdi
Meşələr, dağlar, düzlər.
Dünyamıza bəzəkdir
Okeanlar, dənizlər...

*Rafiq Yusifoğlu*

## C Aşağıdakı cümlələri oxuyun. Cümlələri şeirin bəndləri ilə uyğunlaşdırın.

*A. Su olmasa, kollar, güllər, ağaclar quruyar.*

*B. Meşələr, dağlar, düzlər su ilə canlanır. Susuz nə okean, nə də dəniz olar.*

*C. Hər damla su bir möcüzə yaradır. Yağış yağanda hər tərəfdə çiçəklər açır.*

*D. Çaylar, göllər, bulaqlar dünyamızın bəzəyidir. Susuz balıqlar, balinalar yaşaya bilməz.*



**• Bunları bilməliyik •** **Vergül işarəsi**

• Cümlədə sadalanan sözlər arasında vergül işarəsi ( **,** ) qoyulur; məsələn: *Qaranquş, leylək, durna, bülbül köçəri quşlardır.*

**Ç** **Uyğun yerlərdə vergül işarəsi qoymaqla cümlələri köçürün.**

*1. Arı  kəpənək qarışqa  ipəkqurdu faydalı həşəratlardır.*

*2. Alma ağ  sarı  yaşıl və qırmızı rəngdə olur.*

*3. Toyuq  ördək  qaz ev quşlarıdır.*

*4. Okean dəniz göl çay su mənbələridir.*

**D** **Şəkillərə baxaraq aşağıdakı plan üzrə danışın.**

*1. Su mənbələri necə çirklənir?*

*2. Suyun çirklənməsi nə ilə nəticələnir?*

*3. Təbiətdə suyu qorumaq üçün nə etməliyik?*

*Açar sözlər: çirkab suları, zavod və fabriklər, tullantılar*









•fəsil• 2

# HEYVANLAR ALƏMİ

**1 A Heyvanlar haqqında məlumatları oxuyun. Əlamətlərin hansı heyvanlara aid olduğunu müəyyən edin.**

1. *Meşədə, mağarada yaşayır. Bal və armud yeyir. Rəngi ağ, qara və qonur olur. Soyuq ərazilərdə yaşayan növləri daha nəhəng olur.*

2. *Su heyvanıdır. Suda çox sürətlə üzür. Ağıllı və sevimlidir. İnsanları sevir. Dənizdə batanlara kömək edir. Böyüklər və uşaqlar onu çox sevirlər.*

3. *Səhralarda yaşayır. Tikanlı otlarla qidalanır. İstiyə və susuzluğa dözümlüdür. Hürgücündə su ehtiyatı olur. İnsanlara yük daşımaqda kömək edir.*







**B Şeiri oxuyun. Əlamət bildirən sözlərə diqqət edin.**

### PƏLƏNG

Hündür, yekə pişikdir
Elə bil vəhşi pələng.
Dərisi başdan-başa
Zolaq-zolaqdır qəşəng.

Ov dalınca qaçanda
Elə sürətlə gedir,
Bir göz açıb-yumunca,
Yox olur, gözdən itir.

Ətyeyən yırtıcıdır,
Meşələrdə yaşayır.
Sinəsi ağ, gözləri
Şir gözünə oxşayır.

*Rəsul Rza*

**• Söz boğçası •**

• qonur • səhra • hürgüc

**C Şeirə əsasən pələngin əlamətlərini sadalayın.**

**• Nümunə •**

*1. Pişiyə oxşayır. 2. ...*

**• Sözlərin yazılışı •**

| "G", yoxsa "K" | |
|---|---|
| Doğru | Yanlış |
| pələng | pələnk |
| qəşəng | qəşənk |
| nəhəng | nəhənk |

**Ç Şeirdə mavi rəngdə verilmiş sözləri əksmənalı sözlə əvəz edin. Həmin sözləri cümlədə işlədin.**

**• Nümunə •**

***yekə – balaca***
*Pandanın balası doğulanda çox balaca olur.*

**D** **Nöqtələrin yerinə uyğun gələn samit əlavə edib cümlələri köçürün.**

*Pələn... (**g**, **k**) qüvvətli, cəld heyvandır.*

*Pandanın qəşən... (**k**, **g**), yumşaq dərisi var.*

*Balina nəhən ... (**k**, **g**) su heyvanıdır.*

**2 A** **Verilmiş izahları oxuyun. Hansı heyvana aid olduğunu müəyyən edin. Bu heyvanlar haqqında oxuduğunuz mətnləri xatırlayın.**

*1. Buynuzu və saqqalı olan ev heyvanı.*
*2. Sinəsi ağ, haçaquyruq köçəri quş.*
*3. "Meşə kralı" adlandırılan yırtıcı heyvan.*
*4. Suda-quruda yaşayan sürünən yırtıcı heyvan.*






**B** **Aşağıda verilmiş heyvan adlarını qruplaşdırıb yazın.**

*pələng, tülkü, inək, at, canavar, keçi, ceyran, maral, şir, zürafə*

| Ev heyvanları | Yırtıcı heyvanlar | Otyeyən çöl heyvanları |
|---|---|---|
| ... | ... | ... |

**Faydalı məsləhət** **SÖZÜN İZAHI**

- Varlığın adını izah edərkən elə əlamətləri sadalamaq lazımdır ki, onu başqa varlıqlardan fərqləndirmək mümkün olsun.

*Heyvandır:*
**zebr, pələng, ayı, it**

*Çöl heyvanıdır:*
**zebr, pələng, ayı, ~~it~~**

*Zolaqları var:*
**zebr, pələng, ~~ayı, it~~**

*Otyeyəndir:*
**zebr, ~~pələng, ayı, it~~**









✓ **Zebr** — zolaqlı, otyeyən çöl heyvanıdır.

**C Qruplarla iş** **Cümlələri oxuyun. Nöqtələrin yerinə uyğun gələn heyvan adlarını seçin. Sonuncu qalan sözün izahını verin.**

OTYEYƏN HEYVANLAR
**dəvə, at, qoyun, ceyran**
Ev heyvanıdır:
..., ..., ...
Minik vasitəsi kimi istifadə olunur:
..., ...
Hürgücü var:
...

SU HEYVANLARI
**balina, delfin, balıq, timsah**
Ancaq suda yaşayır:
..., ..., ...
Pulcuqları yoxdur:
..., ...
Ən böyük su heyvanıdır:
...

HƏŞƏRATLAR
**arı, hörümçək, ağcaqanad, kəpənək**
Qanadları var:
..., ..., ...
İynəsi var:
..., ...
Faydalı həşəratdır:
...

QUŞLAR
**qartal, bayquş, sərçə, toyuq**
Çöl quşudur:
..., ..., ...
Yırtıcıdır:
..., ...
Uzun dimdiyi var:
...

**3 A** **Mətnin adından və şəkillərdən istifadə edərək mətnin məzmununu təxmin edin.**

Söz boğçası
- tarixçə
- zabit
- rəhmi gəlmək
- sakin
- nəvazişlə
- qələmə almaq

## VİNNİ PUH VƏ ONUN HƏYATI

Uşaqların sevimli cizgi qəhrəmanlarından biri olan Vinni Puhun maraqlı tarixçəsi var.

Səyahət zamanı Harri adlı bir zabit ovçunun ana ayını öldürdüyünü görür. Tək qalan ayı balasına Harrinin rəhmi gəlir. O, ayı balasını ovçudan alır. Kiçik ayını çox sevən zabit ona doğma şəhəri Vinnipeqin adını verir.

Ayıya qulluq edə bilməyəcəyini görən Harri onu London zooparkına verir. Vinni zooparkın ən sevilən sakini olur. Zooparkda hamı ayı balasını nəvazişlə "Vinni" çağırır.

O dövrdə Londonda Alan Miln adlı bir yazıçı yaşayırdı. Bir gün o, oğlu ilə zooparka gəlir. Dördyaşlı Robin Vinnini çox bəyənir. Atası Robinin ad günündə ona Vinniyə bənzəyən oyuncaq ayı hədiyyə edir. Uşaq bu oyuncağı Vinni Puh adlandırır.

Robin hər gün maraqlı macəralar düşünürdü. Sevimli ayı isə onun qəhrəmanına çevrilirdi. Robinin oyunlarını maraqla izləyən atası bu macəraları qələmə alır. Sonralar onun yazdığı əsər əsasında cizgi filmi çəkilir. Beləliklə, Vinni Puh dünyada bütün uşaqların sevimli qəhrəmanı olur.


1


2


3

**B** **Birinci şəkil mətnin hansı hissəsinə uyğun gəlir? Həmin şəkildən aldığınız məlumatlardan istifadə edərək mətni genişləndirib danışın.**

**C** **İkinci şəkildə təsvir olunan obrazların adlarını söyləyin. Şəkildə təsvir olunanlar mətnin hansı abzasına uyğun gəlir?**

**Ç** **Mətnin hər abzasına aid sual hazırlayıb yazın.**

**D** **Mətnə əsasən cümlələrin ardıcıllığını müəyyən edin.**

*1. Zabit ayı balasını zooparka verir.*
*2. Zabit ayı balasına sevimli şəhərinin adını verir.*
*3. Robin oyuncağı "Vinni Puh" adlandırır.*
*4. Atası Robinə oyuncaq ayı hədiyyə edir.*
*5. Zabit ovçudan ayı balasını alır.*

**E** **Sizcə, heyvanları zooparkda saxlamaq düzgündürmü? Zoopark olmasa idi, Vinninin taleyi necə olardı?**

**4 A** **Dinləmə mətnindən və şəkildən istifadə edərək zoopark haqqında danışın.**



## B Zooparkda olan qadağa işarələrini ifadə etdiyi mənaları ilə uyğunlaşdırın.

a) 
b) 
c) 
ç) 
d) 

*1. Əlinizi qəfəsdən içəri salmayın.*
*2. Yüksək səslə danışmayın.*
*3. Vəhşi heyvanlardan uzaq durun.*
*4. Yerə zibil atmayın.*
*5. İcazə olmadan heyvanlara yemək verməyin.*

**• Bunları bilməliyik •** **ƏMR CÜMLƏSİ**

• *Əmr cümləsi — əmr, xahiş, məsləhət* və s. bildirir. Əmr cümləsinin sonunda nöqtə işarəsi qoyulur; məsələn:

*Heyvanları incitməyin. Onları qoruyun.*

## C Cümlələri oxuyun. Uşaqlara məsləhət verin.

- Uşaqlar meşədə ocaq yandırdılar.
- Aysel dərsə gecikir.
- Rauf çantasını və kitablarını yerə atdı.
- Fərid pişiyin quyruğunu dartdı.

**• Nümunə •**

• Səidə parkdakı çiçəkləri dərdi.

*Səidə, çiçəklərə əl vurma.*

## Ç Qruplarla iş

**Zooparkda davranış qaydalarından nümunə kimi istifadə edərək teatrda davranış qaydalarını tərtib edin.**





**5 A** **Aşağıdakı şəklə baxın.**
**Şəklə və dinləmə mətninə görə suallara cavab verin.**




*1. Heyvanlar hansı problemlərlə üzləşir?*
*2. Heyvanları Müdafiə Günü nə vaxt qeyd olunur?*
*3. Heyvanları Müdafiə Gününün əhəmiyyəti nədir?*

## B Qruplarla iş

**“Heyvanları necə qoruya bilərik?” mövzusunda mətn qurun.**

***1-ci qrup:*** *Küçə heyvanları* ***3-cü qrup:*** *Suda yaşayan heyvanlar*
***2-ci qrup:*** *Quşlar* ***4-cü qrup:*** *Meşədə yaşayan heyvanlar*






## C Təqdimat

**Nəsli kəsilməkdə olan heyvanlar haqqında məlumat toplayıb təqdimat hazırlayın.**

**Faydalı məsləhət**

- Aşağıdakı tövsiyələr təqdimat hazırlamaqda sizə kömək edə bilər:
  – *Mövzu üzrə müxtəlif mənbələrdən məlumat toplayın.*
  – *Əldə etdiyiniz məlumatları vərəqdə yazın.*
  – *Mövzu üzrə şəkillər çəkin və ya tapıb vərəqə yapışdırın.*
  – *Hazırladığınız təqdimatı bir neçə dəfə oxuyun.*

# BİTKİLƏR ALƏMİ

**1 A** **Şəkildə gördüyünüz canlıların ümumi mənasını müəyyən edin.**






**B** **Mətni oxuyun. Çiçək adlarını qeyd edin.**

## QANQALIN NAĞILI



Bir gün çiçəklər ağlamaq səsi eşitdilər. Hamı diqqətlə ətrafa boylandı. Bənövşə soruşdu:

– Dostum Qanqal, niyə ağlayırsan?

Qanqal hıçqıra-hıçqıra dedi:

– İnsanlar məni sevmirlər. Başqa çiçəkləri dərib aparır, amma mənə yaxın durmurlar.

Bənövşə onun göz yaşını sildi:

– Axı sən də gözəlsən. Niyə belə fikirləşirsən? İnsanlar gəlib səni də aparacaqlar.

– Mən gözəl deyiləm. Gözəl sənsən, nərgiz, lalə, o biri çiçəklərdir. Mənim tikanlarım, kələ-kötür paltarım var. Bu tikanlara kim yaxınlaşar? Kim mənim çiçəklərimi dərər?

Bənövşə gülümsünüb dedi:

– Dostum, tikanların olmasa, düşmənlərdən necə qorunarsan? Bax mənim tikanlarım olmadığına görə çox qorxuram.

Qanqal bir az sakitləşdi. Dostlarını yanında görüb sevindi. Amma yenə də həsrətlə insanların yolunu gözləməyə davam etdi.

**C** **Cümlələri tamamlayın.**

*1. Qanqal ağlayırdı, çünki ...*
*2. Qanqal düşünürdü ki, ...*
*3. Qanqal sakitləşdi, çünki ...*

**• Söz boğçası •**
- kələ-kötür
- qanqal
- həsrətlə

**Ç** **Aşağıdakı güllərin adlarını deyin. Mətndə hansı gülün adı çəkilmir?**



**D** **Mətnin davamını təxmin edin.**

**E** **Qanqala məsləhət verin. Əmr cümlələrindən də istifadə edin.**

**• Nümunə •**

*Ağlama, özünə inan...*

**2 A** **Mətnin davamını oxuyun. Qanqal haqqında öyrəndiyiniz yeni məlumatları dəftərinizdə qeyd edin.**

Bir gün bir həkim şagirdi ilə dağlarda gəzirdi. Onlar faydalı bitkilər toplayırdılar. Birdən həkimin gözlərinə tikanlı bir bitki sataşdı. Həkim çox sevindi. Onu şagirdinə göstərib dedi:

– Bax, bu, qanqaldır. Necə də gözəldir! İnsanların sağlamlığı üçün xeyri var. Harada qanqal görsəm, toplayıb ondan dərman hazırlayıram. Bura da məhz onu tapmaq üçün gəlmişəm.

Həkim əlini uzadıb qanqalı qopardı.

Qanqalın sevincinin həddi-hüdudu yox idi:

– Ura, məni də dərdilər! Heç vaxt ağlıma gəlməzdi ki, bu qədər dəyərliyəm.

Nəhayət, Qanqal necə faydalı olduğunu anladı. O, dostları ilə vidalaşdı. Hamı onun arzusuna çatdığını görüb sevindi. Həkim qanqalı heybəsinə qoyub şagirdi ilə oradan uzaqlaşdı.

*Qəfər Rüstəm*

**• Söz boğçası •**

- dərman
- heybə
- vidalaşmaq



**B** **Suallara cavab verin.**

- Həkim qanqalı görəndə nə üçün sevindi?
- Qanqal nə üçün faydalı bitki hesab edilir?
- Nəyə görə sonda Qanqal özünü xoşbəxt hiss etdi?

## C Doğru, yoxsa yanlış?

| | |
|---|---|
| *1. Qanqal özünü çirkin hesab edirdi.* | D/Y |
| *2. Dostları Qanqalın fikrini təsdiqlədilər.* | D/Y |
| *3. Hər çiçəyin öz gözəlliyi var.* | D/Y |
| *4. Bitkilər təbiətə zərər verir.* | D/Y |
| *5. Bəzi bitkilərdən dərman hazırlayırlar.* | D/Y |

## Ç Şəkillərə baxın. Əlamətləri aid olduğu şəkillərlə uyğunlaşdırın. Şəkillərdən istifadə edərək güllərin başqa əlamətlərini də sadalayın.

| | | | |
|---|---|---|---|
| *tikanlı* | *qırmızı* | *salxım formalı* | *ağ ləçəkli* |






## D Mətndə mavi rənglə verilmiş cümlələri yenidən oxuyun. Hansı cümlədə sevinc, hansında heyranlıq ifadə olunur?

**• Bunları bilməliyik • NİDA CÜMLƏSİ**

• Bəzi cümlələrdə hiss, həyəcan (qorxu, sevinc, kədər və s.) ifadə olunur. Belə cümlələrə **nida cümləsi** deyilir. Nida cümləsinin sonunda nida (!) işarəsi qoyulur; məsələn: *Qoy həmişə Günəş olsun!*

## E Hər şəklə uyğun bir nida cümləsi yazın.





## 3 A Oxuyun. Mətnin növünü müəyyən edin.

### QANTƏPƏR

Kiçik günəbaxana
Oxşayır bu qantəpər.
İncə ləçəklərində
Xallı böcəklər gəzər.

Onun rəngi sarıdır,
Yaxın dostu arıdır.

Bu çiçəyi qurudub
Çay dəmləyər nənələr.
Deyərlər: – Neçə dərdin
Dərmanıdır qantəpər.

*Zahid Xəlil*



**• Söz boğçası •**

• qantəpər • ləçək • herbari

## B Şəkillərlə şeirin hissələri arasındakı uyğunluğu tapın.

1, 2, 3, 4



**C** Şeirin hansı hissəsində qantəpərin dərman bitkisi olduğu bildirilir? Həmin misraları oxuyun.

**Ç** Şeirdə "balaca", "zərif", "gül", "yoldaş" sözləri ilə yaxınmənalı olan sözləri tapın. Nümunəyə uyğun olaraq yazın.

• Nümunə •

*balaca – kiçik*

**D** Hər hansı dərman bitkisi haqqında araşdırma aparın. Nümunəyə əsasən məlumat vərəqi hazırlayın.

Ölçüsü ____________________________________________

Yarpağının rəngi və forması ____________________________

Çiçəyinin rəngi və forması ____________________________

Ətri ______________________________________________

**E** Dinlədiyiniz mətnə və şəkillərə əsasən herbarini hazırlamaq üçün təlimat yazın.




**Ə** Təlimata əsasən dərman bitkilərindən herbari hazırlayın.

**4 A Mətnə aid şəklə baxın. Mətnin məzmununu təxmin edin.**

## BAĞBANIN SƏHVİ
*(hekayət)*

Bağbanın bağçasında qoca bir alma ağacı var idi. Bu ağac o qədər qocalmışdı ki, artıq bar vermirdi. Bir gün bağban ağaca baxıb öz-özünə deyir:

– *Alma ağacı çox qocalıb. Nə vaxtdır ki, meyvə də vermir. Bundan sonra onun heç kimə faydası yoxdur. Yaxşısı budur, onu kəsim*.

O, əlinə balta alıb alma ağacının yanına gəlir. Bu zaman ağacda yaşayan sincab, sərçə, cırcırama, qarışqa və arılar ona yalvarmağa başlayırlar:

– Xahiş edirik, ağacımızı kəsmə. Axı bura bizim evimizdir! Unutma ki, biz hamımız bir-birimizə gərəyik!



Bunu eşidən bağban peşman olur. Öz-özünə deyir: *"Gör mən nə qədər səhv düşünmüşəm. Mənim yararsız bildiyim ağac, əslində, nə qədər faydalı imiş".*

Beləliklə, bağban fikrindən əl çəkir. Ağacda yaşayan heyvanlar çox sevinirlər. Bağbana təşəkkür edirlər. Birlikdə alma ağacındakı yuvalarında yaşamağa davam edirlər.

**B Cümlələri tamamlayın.**

*1. Bağban ağacı kəsmək istədi, çünki ... .*

*2. Heyvanlar bağbana yalvardılar ki, ... .*

*3. Bağban fikrini dəyişdi, ona görə də ... .*

*4. Bağban ağacı kəsmədi, beləliklə, ... .*

**C Bağban səhvini anlamasa idi, hadisələr necə davam edərdi?**

**Ç Hansı fikir mətnin məzmununa uyğun deyil?**

*A) Ağacların faydası çoxdur.*

*B) Canlıların həyatı bir-biri ilə sıx bağlıdır.*

*C) Meyvə verməyən ağacları kəsərlər.*

**5 A** **Mətndə mavi rənglə verilmiş cümləni yenidən oxuyun. Nəyə görə bu cümlənin sonunda nida işarəsi qoyulmuşdur?**

**• Söz boğçası •**
- çağırış
- daşındırmaq

**B** **Şəklə baxın. Uşağın hərəkətinə münasibət bildirin. Onu bu hərəkətdən daşındırmaq üçün necə çağırış edərdiniz?**



**• Bunları bilməliyik •** **ŞÜAR**

- **Şüar** müəyyən mövzu ilə bağlı qısa və yaddaqalan çağırışdır; məsələn:
  *mövzu:* "Vətənə sevgi";
  *şüar:* "Yaşasın Azərbaycan!"
- Hiss, həyəcan ifadə etdiyi və təsirli olduğu üçün şüarın sonunda nida işarəsi qoyulur.

**C** **Qruplarla iş** **Aşağıda verilmiş şəkillərin mövzusunu müəyyən edin və ona uyğun şüar yazın.**


1


2


3


4

# Ümumiləşdirici təkrar

**6 A Mətnin növünü müəyyən edin. Fikrinizi əsaslandırın.**

**GİLAS AĞACI**



Bağçada bir Gilas ağacı var idi. Gilas ağacının dibində Köstəbək və Soxulcan yaşayırdı. Gövdəsində isə qarışqa və böcəklər dolanardı. Budaqlarına quşlar, çiçəklərinə arılar qonaq gələrdi.

Günlərin birində Gilas ağacı qonaqlarına dedi:

– Deyin görüm, nə vaxta kimi mənə qonaq olacaqsınız? Bəs sizin mənə nə xeyriniz var?

Köstəbək və Soxulcan tez dilləndilər:

– Biz torpağı yumşaldırıq. Ona görə sənin köklərin daha dərinə gedir.

Quşlar cikkildəyərək dilləndilər:

– Biz sənə zərər verən cücüləri tapıb yeyirik.

O gündən sonra Gilas ağacı qonaqlarından heç şikayətlənmədi.

**B Mətndəki dialoq hansı obrazlar arasında baş verir?**

**C Mətndəki əsas fikri müəyyən edin.**

**Ç Hərəkət bildirən sözləri uyğun zamanda işlətməklə cümlələri köçürün.**

*1. Hazırda yağış (yağmaq) ... .*

*2. Keçən il havalar çox soyuq (keçmək) ... .*

*3. Sabah günəş (tutulmaq) ... .*

**D Uyğun gələn durğu işarələrini əlavə etməklə dialoqu köçürün.**

*Lətifə Aygüldən xahiş etdi ( )*

*( ) Yaşıl karandaşın birini mənə ver ( )*

*( ) Qoy anamdan icazə alım, sonra.*

*Səhər onlar məktəbdə görüşdülər. Lətifə soruşdu ( )*

*( ) Anan nə dedi?*

*Aygül dərindən ah çəkdi ( )*

*( ) Anam icazə verdi.*

# 4 YAXŞI NƏDİR, PİS NƏDİR

**1 A** **Oxuduğunuz mətnlərdən nümunələr gətirməklə yaxşı və pis xüsusiyyətlər haqqında danışın.**

tənbəllik

dostluq

qayğıkeşlik

lovğalıq

birlik

çalışqanlıq











# DOSTLUQ

**B** **Sizcə, "əsl dost" adını qazanmaq üçün insana hansı xüsusiyyətlər lazımdır?**

**C** **Rollu oxu. Şeirdə obrazların nitqi mavi rənglə verilmişdir. Onların sözlərini səsləndirərkən jest və mimikadan istifadə edin.**

## ƏSL DOST

– Deyin görək, uşaqlar,
Əsl dost necə olar?
– Vüqar mənim dostumdur, –
Sözə başladı İdris, –
Dərslər çətin olanda
Birgə öyrənirik biz.

Vüsal dedi: – Müəllim,
Çox razıyam Lalədən.
Onun kimi yaxşı dost
Görməmişəm hələ mən.
Növbətçiydim sinifdə,
Xəstəydi o gün anam.
Gəlib məni çağırdı
Kiçik qardaşım İnam.
O gün mənim yerimə
Lalə növbətçi qaldı.
Sinfin bütün qayğısın
O öz üstünə aldı.

– Qurtarmışdı dəftərim, –
Sonra dilləndi Lalə, –
Mağazada tapmadım,
Yollandım İdrisgilə.
Gətirdi xeyli dəftər.
Dedi: "Qurbandır sənə!"
Dedim: "Sağ ol, ay İdris,
Biri lazımdır mənə".
Sonra Etibar müəllim
Dedi gülümsəyərək:
– Dost dostundan heç nəyi
Əsirgəməsin gərək.
Zəng vuruldu, müəllim
Sinifdən çıxdı çölə.
Dostluqdan danışırdı
Balaca dostlar hələ.
Lövhəyə belə yazdı
Tənəffüsdə Cavanşir: ...

*Rafiq Yusifoğlu*

**• Söz boğçası •**
• əsirgəməmək • növbətçi



**Ç** **Şeiri tamamlamaq üçün uyğun misraları seçin.**

| | |
|---|---|
| *Kimin ki dostu yoxdur,*<br>*Çətindir onun işi.* | *Adam təkbaşına da*<br>*Görə bilər hər işi.* |

**D** **Şeirdən aşağıdakı cümlələrə uyğun gələn hissələri seçib oxuyun. Bu fikirlər kimlərin dilindən səslənir?**

- Mənim dəftərim olmayanda o mənə öz dəftərini verdi.
- Anam xəstə olanda o mənim əvəzimə növbətçi qaldı.
- Biz dərslərə birlikdə hazırlaşırıq.

**Şəkillərdə həmin obrazları tapın və adlarını deyin.**




**İndi isə aşağıdakı sözləri bu şəkillərlə uyğunlaşdırın.**

*A) əliaçıqlıq B) əməkdaşlıq C) xeyirxahlıq*

**E** **Aşağıdakı cümlələri oxuyun. Uyğunluğu müəyyən edin. Fikrinizi əsaslandırın.**

1. *Dost dar gündə tanınar.*
2. *Dost dostdan heç nəyi əsirgəməz.*
3. *Dostluq düzlükdədir.*

*A) əliaçıqlıq*
*B) dürüstlük*
*C) sədaqət*

**2 A** **“Əsl dost” şeirində altından xətt çəkilmiş sözlərə diqqət yetirin. Bu sözlər arasındakı fərqi izah edin.**

• Bunları bilməliyik • ***-LAR, -LƏR*** **– ÇOXLUQ BİLDİRƏN HİSSƏCİK**

Ad bildirən sözlərin sonuna artırılan -lar hissəciyi varlığın çox olduğunu bildirir; məsələn:

*qız (tək) – qızlar (cəm).*

Bu hissəcik ahəng qanununa uyğun olaraq dəyişir. Sonuncu hecasında qalın sait olan sözlərə *-lar*, incə sait olan sözlərə *-lər* artırılır:

*çanta – çantalar; kitab – kitablar;*
*qələm – qələmlər; şagird – şagirdlər.*

**B** **Sözləri cəmdə yazın.**

*meşə, həyət, bağça, masa, pozan, pəncərə, ev, odun, karandaş*

**C** **Şəkillərdəki varlıqların adlarını uyğun olaraq təkdə və ya cəmdə yazın.**



**Ç** **Nümunə əsasında sinifdəki dostunuz haqqında məlumat anketini doldurun. Anketi sinfə təqdim edin. Dostunuz özünü tanıdımı?**

| **Dostum haqqında məlumat** | |
|---|---|
| Dostluq etdiyimiz müddət | *İki il* |
| Hobbisi | *Mütaliə etmək* |
| Bəyəndiyim cəhəti | *Dürüstlüyü* |
| Bəyənmədiyim cəhəti | *Küsəyənliyi* |
| Fərqli xüsusiyyətlərimiz | *O daha çalışqandır.* |
| Oxşar xüsusiyyətlərimiz | *İkimiz də zarafatcılıq* |

**D** **Sinifdə ən yaxın dostunuzun adını vərəqdə yazıb müəllimə təqdim edin. Sorğunun nəticəsində sinifdə ən çox dostu olan şagirdi müəyyən edin. Bunun səbəblərini izah etməyə çalışın.**

**3 A** **Şəkillərə baxın və jestləri izah edin.**






**B** **Sanamanı oxuyun. Sanamadakı ifadələri barmaq adları ilə uyğunlaşdırın.**

*Baş barmaq,*
*Başala barmaq,*
*Uzun Hacı,*
*Qılturacı,*
*Xırdaca bacı.*




**C** **Oxuyun. Suallara cavab verin.**

## ÇEÇƏLƏ BARMAQ



Çeçələ barmaq Baş barmağı heç sevməzdi. Həmişə öz-özünə düşünürdü: "Hər işdə özünü qabağa verir. Qoymur ki, mən də qələm tutum, qaşığı saxlayım".

Çeçələ barmağa par-par parıldayan bir üzük taxılmışdı. Bir gün bu üzük sürüşdü, az qaldı ki, barmaqdan çıxsın. Çeçələ barmaq Adsız, Orta və Şəhadət barmaqları köməyə çağırdı. Barmaqlar nə qədər çalışsalar da, üzüyü yerinə qaytara bilmədilər. Elə bu vaxt Baş barmaq özünü çatdırdı. Üzüyü tutub yerinə çəkdi. Sonra üzünü Çeçələ barmağa tutub dedi:

– Unutma ki, mən burdayam. Hər zaman mənə güvənə bilərsən.

Çeçələ barmaq o gündən sonra heç bir barmağa paxıllıq etmədi. Hamısı ilə dost oldu. Onlarla birgə xeyirxah işlər gördü.

- **Çeçələ barmaq Baş barmağı nə üçün sevmirdi? O, haqlı idimi?**
- **Hansı xüsusiyyəti Çeçələ barmağın dostluq etməsinə mane olurdu?**

**Ç** **Altından xətt çəkilmiş cümləni bir daha oxuyun. Barmaqlarınız üzərində müşahidə aparmaqla cümlədəki fikri əsaslandırın.**

**D** **Mətndəki əsas fikri müəyyənləşdirin. Mətnə yeni ad verin.**

**E** **"Beş barmağın beşi də bir olmaz" atalar sözünü mətnlə əlaqələndirib izah edin.**

**4** **A** **"Çeçələ barmaq" mətni ilə bağlı suallara cavab verin.**

- Əsas obrazların adları ilk dəfə hansı hissədə çəkildi?
- Mətndə baş qəhrəman hansı problemlə üzləşdi?
- Problem necə həll olundu?
- Sonda nə baş verdi?

**• Bunları bilməliyik •** **MƏTNİN TƏRKİB HİSSƏLƏRİ**

Mətnlər üç hissədən ibarət olur: *giriş, əsas, son*luq.
*Girişdə* obrazların adları çəkilir, hadisələrin yeri, zamanı göstərilir.
*Əsas hissədə* qəhrəmanların başına gələn hadisələr nəql olunur.
*Sonluq hissədə* hadisənin nəticəsi göstərilir.

**B** **Şəkillər əsasında aşağıdakı ardıcıllığa uyğun mətn qurub yazın.**

*Giriş: 1-ci şəkil*
*Əsas hissə: 2-ci, 3-cü, 4-cü şəkillər*
*Sonluq: 5-ci şəkil*

**Şəkillər üzərində verilmiş açar sözlərdən istifadə edin.**

1















**5 A Verilmiş açar sözlərdən istifadə etməklə şəkillər üzrə danışın.**

*Açar sözlər: kömək, köməyə çağırmaq, qayğı göstərmək, qayğıkeş*







**B Nümunələr gətirməklə dostluq münasibətlərində qayğıkeşlik haqqında danışın.**

**C** **Mətni oxuyun. Tanış olmayan sözləri qeyd edin.**

## İKİ GÜL



**• Söz boğçası •**

- tumarlamaq
- sinə gərmək
- minnətdarlıq
- boylanmaq

Yolun kənarında qırmızı və çəhrayı rəngli iki gül bitmişdi. Güllər bütün günü bir-birini tumarlayır, küləyə birgə sinə gərirdilər. Gün çıxanda onun istisinə qızınırdılar.

Bir gün yoldan keçən bir oğlan özü də bilmədən iri ayaqqabısı ilə Çəhrayı gülü əzdi. Qırmızı gül çox məyus oldu. O haray saldı:

– Ay oğlan, sən nə etdin? Axı o mənim rəfiqəmdir!

Qırmızı gül göz yaşları ilə rəfiqəsini suladı. Yarpaqları ilə sığallayıb qaldırmağa çalışdı. Günəş onu isitdi. Ancaq Çəhrayı gül həddən çox əzilmiş, gövdəsi əyilmişdi.

Nəhayət, bir gün Çəhrayı gül yerdən baş qaldırdı. Ləçəklərini geniş açaraq Günəşə sarı boylandı. Gövdəsini zəif-zəif tərpədərək Günəşə öz minnətdarlığını bildirdi:

– Təşəkkür edirəm, Günəş. Məni sağaltdın.

– Düzdür, mən sənə kömək etməyə çalışdım, əziz dost. Amma sənin həyata qayıtmağın yanındakı dostuna görədir. Dostunun məhəbbəti, qayğısı səni xilas etdi.

*Reyhan Yusifqızı*

**Ç** **Mətnin tərkib hissələrinə aid uyğunluğu müəyyən edin.**

*1. Oğlan bilmədən Çəhrayı gülü əzdi.*
*2. Qırmızı gül göz yaşları tökdü.*
*3. Günəş Qırmızı gülün sədaqətli olduğunu anlatdı.*
*4. Güllər birlikdə boy atıb böyüyürdülər.*
*5. Səmimi dostluq Çəhrayı gülü xilas etdi.*
*6. Çəhrayı gülün gövdəsi əyildi.*
*7. Yolun kənarında iki gül bitmişdi.*

GİRİŞ

ƏSAS

SONLUQ

**D** **Mətndəki əsas fikir mətnin hansı hissəsində ifadə olunub?**

# SƏDAQƏT

**1 A** **Dostunuz sizə kobudluq etsə, siz ona qarşı necə davranardınız?**

**B** **Mətni oxuyun. Hadisələrin ardıcıllığına diqqət yetirin.**

## QAR KRALİÇASI | *I Hissə*



**Söz boğçası**
- qırıntı
- eybəcər
- lağa qoymaq

**1** Kay və Gerda həm qonşu, həm də dost idilər. Onlar bacı-qardaş kimi mehriban idilər.

Bir gün Kay və Gerda bağçada oynayırdılar.

Birdən Kay qışqırdı:

– Vay! Gözümə nəsə düşdü!

Gerda oğlanın gözlərinə baxdı, amma heç nə görmədi.

Yazıq qız nə bilsin ki, Kayın gözünə sehrli güzgünün qırıntıları düşüb.

**2** Bu güzgünü div düzəltmişdi. Güzgü hər şeyi çox çirkin göstərirdi. Zalım div bu güzgüyə baxaraq əylənirdi.

Bir gün güzgü divin əlindən yerə düşüb sındı. Qırıntıları bütün dünyaya səpələndi. Qırıntı kimin gözünə düşürdüsə, o adamın gözündə hər şey çox eybəcər görünürdü. Həmin adamın ürəyində mərhəmət hissi qalmırdı.

**3** Kay Gerdaya baxdı və dedi:

– Ay aman! Sən necə də çirkinsən!

Sonra əlindəki qızılgülü yerə atdı.

– Bu nə pis güldür!

Gerda təəccüblə dostuna baxdı. Əvvəllər mərhəmətli olan Kay indi necə dəyişmişdi! O gündən sonra Kay hamını lağa qoyurdu. ⋯→

**C** **Mətnin hansı hissəsindəki hadisə daha əvvəl baş vermişdir? Mətni hadisələrin zaman ardıcıllığına uyğun nəql edin.**

**Ç** **Verilmiş sözlərin yaxınmənalı qarşılığını söz boğçasından seçin.**
*1) çirkin, ...    2) ələ salmaq, ...    3) hissəcik, ...*

## 2 A Mətnin davamını oxuyun. Suallara cavab verin.

### QAR KRALİÇASI | *II HİSSƏ*

Qarlı bir gün idi. Güclü şaxtadan hər tərəf buz bağlamışdı. Kay küçədə xizək sürürdü.

Birdən iri bir kirşə göründü. Kirşədə Qar kraliçası oturmuşdu. Bəzəkli kirşə Kayın xoşuna gəldi. Tez həmin kirşədən yapışdı və öz xizəyinin ipini kirşəyə keçirdi.



**Söz boğçası**
- xizək
- kirşə

Kirşə xizəyi çəkib uzaqlara aparırdı. Bunu görən Kay xizəyi açmaq istədi, lakin bacarmadı. Qar kraliçası kirşəni saxlayıb yerə düşdü. Kayın alnından öpdü. Bu öpüşdən Kayın ürəyi buza döndü. O, ailəsini və Gerdanı unutdu. Onlar Laplandiya ölkəsinə doğru üz tutdular. Bir müddət sonra Qar kraliçasının sarayına çatdılar.

O vaxtdan Kay kraliçanın Buz sarayında yaşamağa başladı.

**B** **Hansı suala mətndən cavab tapmaq mümkün deyil?**
**Hansı sualın cavabını yalnız şəkildən tapmaq mümkündür?**

*A) Kayın ürəyi niyə buza döndü?*
*B) Qar kraliçası necə geyinmişdi?*
*C) Qar kraliçası Kayı hara apardı?*
*Ç) Kay sarayda nə qədər yaşadı?*

**C** **“Qar kraliçası” mətninin giriş hissəsini müəyyən edin.**
**Mətnin əsas hissəsi hansı hadisə ilə başlayır?**

• Bunları bilməliyik • **MƏTNİN ƏSAS HİSSƏSİ**

Bir çox mətnlərdə baş qəhrəmanlar problemlə üzləşirlər. Bununla da mətnin əsas hissəsi başlayır. Problemi həll etmək üçün qəhrəmanlar müxtəlif maneələri keçirlər.

**Ç** **Problemlə üzləşdikdən sonra Kayın başına gələn hadisələri danışın. Sizcə, Kay xilas ola biləcəkmi? Ona kim kömək edə bilər?**

**3 A** **Mətnin davamını oxuyun. Gerdanın hisslərini ifadə edən cümlələri müəyyənləşdirin.**

**QAR KRALİÇASI** | *III HİSSƏ*

Gerda Kaya görə narahat idi. O hər gün ağlayırdı. Nəhayət, o, dostunu axtarmağı qərara aldı.

Çayın sahilinə gəldi, qayığa minib yola çıxdı. Gerda qayıqla üzə-üzə çayın o biri sahilinə çatdı...

• Söz boğçası •
- qayıq
- quldur
- quldurbaşı

**B** **Mətnin davamını dinləyin. Şəkillərin ardıcıllığını müəyyən edin.**













**C** **Qruplarla iş**

**Hər bir şəkil üzrə mətnin uyğun hissəsini nəql edin.**

## 4 A Mətni oxuyun. Suallara cavab verin.

**QAR KRALİÇASI** *IV Hissə*

Maral Gerdanı Qar kraliçasının sarayına gətirdi. Gerda saraya daxil oldu. Kayı görüb onun üstünə qaçdı. Amma Kay onu tanımadı.



Gerda üzünü Kayın sinəsinə sıxıb ağladı. İsti göz yaşları Kayın ürəyindəki buzu əritdi. Kay bərkdən ağlamağa başladı. Bu vaxt gözündəki güzgü qırıntısı qopub yerə düşdü. Kay Gerdanı tanıdı. O dedi:

– Mən haradayam? Bura necə də soyuqdur!

– Gedək, evdə hər şeyi danışaram.

Dostlar əl-ələ tutub saraydan çıxdılar. Marala minib geri döndülər. Nəhayət, evlərinə çatdılar. Həmişəki kimi öz bağçalarında oynamağa başladılar. Qar kraliçası birdəfəlik yaddan çıxdı.

- **Kay nə üçün Gerdanı tanımadı?**
- **Kayın ürəyindəki buzun əriməsinin səbəbi nə idi?**

**B** **Sizcə, nə üçün Gerdanın rast gəldiyi adamlar ona kömək etdilər?**

**C** **Sözləri və izahları oxuyun. Mətndəki əsas fikrə uyğun sözü seçin.**

*A) Cəsarət – qorxmazlıq, hünər, cürət.*
*B) Sədaqət – dostluqda vəfa, etibarlılıq.*
*C) Kobudluq – ədəbsizlik, nəzakətsizlik.*

**Ç Qruplarla iş**

**“Qar kraliçası” mətnini aşağıdakı başlıqlara uyğun nəql edin.**

***I qrup:*** *Güzgü qırıntısı*
***II qrup:*** *Buza dönmüş ürək*
***III qrup:*** *Gerdanın Kayı axtarması*
***IV qrup:*** *Kayın xilas olması*

**5 A** **Aşağıdakı cümlədə hansı suala cavab yoxdur?**

*Maral Gerdanı Qar kraliçasının sarayına gətirdi.*

*A) Maral Gerdanı hara gətirdi?*
*B) Maral Gerdanı nə vaxt gətirdi?*
*C) Maral Qar kraliçasının sarayına kimi gətirdi?*

**Faydalı məsləhət** **CÜMLƏNİN GENİŞLƏNDİRİLMƏSİ**

Hər bir cümlə müəyyən fikir ifadə edir.

*Aydan getdi.*

Cümləyə yeni sözlər əlavə etməklə fikri genişləndirmək olar; *məsələn:*

*Aydan **şəhərə** getdi.*
*Aydan **dünən** şəhərə getdi.*
*Aydan dünən **anası ilə** şəhərə getdi.*

Cümlədəki fikri tam başa düşmək üçün hər bir sözə diqqət yetirmək lazımdır.

**B** **Verilən cümlədən hansı nəticələri çıxarmaq olar?**

*Kay və Gerda həmişəki kimi evlərinin yanındakı bağçada oynayırdılar.*

1. *Kay kənddə, Gerda isə şəhərdə yaşayırdı.*
2. *Kay və Gerda əvvəllər də bu bağçada oynayıblar.*
3. *Uşaqlar səhərlər oynamağı xoşlayırdılar.*
4. *Kay və Gerda qonşu idilər.*

**C** **Nöqtələrin yerinə uyğun sözü yazmaqla cümlələri köçürün. Seçiminizi əsaslandırın.**

1. *Cavid mətni ... üçün plan tərtib etdi.*

   *A) dinləmək B) danışmaq C) oxumaq*

2. *Hava şaxtalı olduğu üçün Əsmər ... geyindi.*

   *A) köynək B) əlcək C) ayaqqabı*

**Ç** **Cümlələri genişləndirib yazın.**

*1. Biz görüşdük. 2. Nailə oxudu. 3. Güldan sındı. 4. Top partladı.*

# QƏNAƏT

**1 A** **Şəkillərə baxın. Hansı şəkillərdə elektrik enerjisinə və suya qənaət olunur?**




**B** **Mətnə çəkilmiş şəklə baxın və mətnin məzmununu təxmin edin. Mətni oxuyun. Təxminlərinizlə müqayisə edin.**

## HERBARİ ÜÇÜN ALBOM



**Söz boğçası**
- qənaət
- israf
- kağıztikən
- suçu

Ülkər hər il yay tətilini kənddə – babasıgildə keçirirdi. Babası suçu idi. Ülkər onunla əkin sahələrinə gedir, müxtəlif güllər, yarpaqlar, bitkilər toplayır, qurudurdu. Ona bu işdə əmisi qızı Türkan da kömək edirdi.

Bir gün Ülkər çox məyus oldu. Çünki o, herbari düzəltmək üçün aldığı **yeni** albomu şəhərdəki evdə unutmuşdu.

Bitkilər, yapışqan, iynə-sap – bir sözlə, hər şey hazır idi. Herbarini düzəltmək üçün bircə albom çatışmırdı. Ülkər mağazadan albom almaq qərarına gəldi. Bu zaman Türkan ona dedi:

– Bilirsən, nə edək? Gəl köhnə rəsm albomlarından yenisini düzəldək. Həm pula **qənaət** edərik, həm də vərəqlər **israf** olmaz.

Qızlar kitab rəfindəki **köhnə** rəsm albomlarını stolun üstünə **tökdülər.** Ağ vərəqləri qoparıb səliqə ilə üst-üstə **yığdılar.** Türkan kağıztikənin köməyi ilə vərəqləri bir-birinə bərkitdi.

Qızlar çox gözəl herbari düzəltdilər. İndi Ülkərin bir istəyi qalmışdı: əl işini dostlarına göstərmək.

*Şəhla Fərhadqızı*

**C** **Verilmiş cümləni oxuyun. Oxuduğunuz cümlədən çıxan fikirləri müəyyən edin.**

*Ülkər hər il yay tətilini doğma kənddə – babasıgildə keçirirdi.*

1. *Ülkər keçən il də kəndə getmişdi.*
2. *Ülkər şəhəri çox sevir.*
3. *Ülkər bayram günlərində babasını görməyə gedir.*
4. *Ülkər məktəblidir.*
5. *Ülkərin babası şəhərdə yaşamır.*

**Ç** **Türkanın davranışını necə qiymətləndirmək olar? Xəsislik, yoxsa qənaətcillik? Seçiminizi əsaslandırın.**

**D** **Mətndə fərqləndirilmiş sözlər arasından əksmənalı söz cütlərini tapın.**

• Nümunə •

*qənaət – israf*

**E** **"Su", "suçu" sözləri arasındakı fərqi izah edin.**

• Bunları bilməliyik • *-çı, -çi, -çu, -çü* **HİSSƏCİKLƏRİ**

Bir çox sözlərə *-çı* hissəciyi artırmaqla yeni söz yaratmaq olur. Bu sözlər, adətən, peşə bildirir.

Bu hissəcik ahəng qanununa uyğun olaraq dəyişir: *-çı, -çi, -çu, -çü*.

• Nümunə • yazı – **yazıçı** neft – **neftçi** qoruq – **qoruqçu** üzüm – **üzümçü**

**Ə** **Nöqtələrin yerinə uyğun gələn sözü yazmaqla cümlələri köçürün.**

• Nümunə •

*idman*

*Samir yaxşı ...çıdır. O, dəfələrlə çempion olub.*

1. *Bu gün Aydın futbol oyununda ...çı oldu.*
2. *Bacım musiqi təhsili alıb. O, gözəl ...çudur.*
3. *Atam gəmidə işləyir. O, təcrübəli ...çidir.*
4. *Dayım peşəkar ...çüdür. Hamı onun yetişdirdiyi qərənfillərə heyrandır.*

*piano*
*dəniz*
*gül*
*qapı*

**2 A** **Sizin daxılınız varmı? Siz daxıldan necə istifadə edirsiniz?**

**B** **Şeiri oxuyun. Jest və mimikadan istifadə edin.**

### ŞAHİNİN XAHİŞİ

Ata, mənə daxıl al,
Ona ehtiyacım var.
Daxılım olmadıqca
Pulum, param dağılar.

Ona qəpik atdıqca
Pulun sayı çoxalar.
Qənaətim artdıqca
İsrafçılıq yox olar.

Pulu düz xərcləməsək,
Bilmərik, getdi hara.
Qənaəti sevənlər
Düşməzlər heç vaxt dara.

Kim deyir ki, daxılın
Dost köməyi az olar.
Atalar yaxşı demiş:
"Dama-dama göl olar".

*Şəhla Fərhadqızı*



**C** **Şeirə çəkilmiş şəklə baxın, sualları cavablandırın.**

1. *Şəkildə təsvir olunan obrazın adı nədir?*
2. *Sizcə, ata oğluna daxıl alacaqmı?*
3. *Daxılın rəngini və formasını təsvir edin.*

**Ç** **Şeirin sonuncu misrasını izah edin, şeirdəki əsas fikirlə əlaqələndirin.**

**D** **"Daxılın dost köməyi" ifadəsini necə başa düşürsünüz?**

**E** **Cümlələri oxuyun və şeirdən onlara uyğun misraları köçürün.**

1. *Kim qənaəti sevərsə, heç vaxt çətinliklə üzləşməz.*
2. *Puldan düzgün istifadə etməsək, onu itirərik.*
3. *İnsan qənaət etməyə alışdıqca israfçılıq aradan qalxar.*

**Ə** **Qənaətcil olmağın hansı faydaları ola bilər?**

**F** **"Daxıl" sözünü nəqli, sual, nida və əmr cümlələrində işlədib yazın.**

**G** **"Daxıl aldı" cümləsini müxtəlif sözlərin köməyi ilə genişləndirin.**

**3 A** **Sizcə, daxıl insanın qənaətcil olmasına kömək edirmi?**

**B** **Mətni oxuyun. Əsas obraza münasibət bildirin.**

## AĞILLI DAXIL

*I HİSSƏ*

Sevda ikinci sinifdə oxuyurdu. Ata-anasının sevimlisi idi. Dərslərində hər bir uğuruna görə valideynləri onu gəzintiyə, əyləncə mərkəzlərinə aparırdılar.

Amma bu qıvrımsaç, şıltaq qızın bir xüsusiyyəti valideynlərini çox narahat edirdi. Hər dəfə alış-verişə gedəndə Sevda gözünə sataşan, xoşuna gələn hər nə varsa, istəyirdi. Atasından tez-tez pul alır, bu pulları tez bir zamanda xərcləyirdi.

Bir gün atası Sevdaya bir daxıl aldı. Daxıl oyuncaq meymun formasında idi. Sinəsinə kiçik monitor bərkidilmişdi.

Sevda atasının verdiyi qəpikləri sevincək bir-bir daxıla atdı. Bu zaman monitor işıqlandı, orada yazı göründü və daxıldan səs gəldi:



*Daxılda var **00** man. **80** qəp.*

Sevdanın təəccübdən gözləri böyüdü:

– Ata... Axı bu necə ola bilər?! Bu ki robotdur!

– Elədir, qızım. İndi sən həmişə daxılındakı pulun miqdarını biləcəksən.

– Əla! Mən onun adını Kinq-Konq qoydum. O, başqa nəyi bacarır?

– Çox şeyi. <u>O sənə pullarını necə idarə etməyi də öyrədəcək</u>.

Sevda bu sözlərdən bir az duruxdu:

– Necə? İdarə etməyi?

– Hə. İstifadə etdikcə özün görəcəksən.

Sevda sevinə-sevinə daxılı öz otağına apardı. ···→

**C** **Sevdanın xasiyyəti haqqında nə deyə bilərsiniz?**

**Ç** **Mətn və şəkildən istifadə etməklə daxılı təsvir edin.**

**D** **Sizcə, ata Sevdaya nə üçün robot-daxıl aldı?**

**E** **Altından xətt çəkilmiş cümləni izah edin.**
**"Pulu idarə etmək" nə deməkdir?**
**Sizcə, robot pulları idarə etməyi Sevdaya necə öyrədəcək?**

**4 A** **Mətnin davamını oxuyun. Daxıla münasibətinizi bildirin.**

*II HİSSƏ*

Sevda sabahkı dərsə hazırlaşırdı. Rəsm dərsi üçün karandaşlarını yonurdu. Birdən qələmyonan qırıldı. Sevda daxıla yaxınlaşdı. Monitorun düyməsini basıb yandırdı. Çıxarmaq istədiyi pulun məbləğini yazdı: 60 qəpik. Bundan sonra Kinq-Konqla Sevda arasında yazışma başladı:



| | |
|---|---|
| *Kinq-Konq* | Bu məbləğ sənə nə üçün lazımdır? |
| *Sevda* | Qələmyonan almalıyam. |
| *Kinq-Konq* | Qələmyonanın yoxdur? |
| *Sevda* | Var idi, indi qırıldı. |
| *Kinq-Konq* | Deməli, qələmyonan almağa **ehtiyac** var. Pulu götürə bilərsən. |

| | | | | |
|---|---|---|---|---|
| *Daxılda var* | 00 | *man.* | 80 | *qəp.* |
| *Daxil edilən məbləğ* | 00 | *man.* | 00 | *qəp.* |
| *Çıxarılan məbləğ* | 00 | *man.* | 60 | *qəp.* |
| *Qalıq məbləğ* | 00 | *man.* | 20 | *qəp.* |

Bu zaman monitorun yaşıl işığı yandı. Daxılın içindən pulların cingiltisi eşidildi. Daxılın siyirməsi açıldı. Orada 3 ədəd 20 qəpik var idi. Sevda sevincək onları götürdü və meymunun başını sığalladı:

– Çox sağ ol, Kinq-Konq!

Sonra yaxınlıqdakı məktəb ləvazimatı satılan mağazaya getdi. Qələmyonanın qiyməti 40 qəpik idi. Sevda qələmyonanı alıb evə gəldi. Pulun qalığını daxıla atdı. Bu zaman monitor işıqlandı və daxıldakı qalıq məbləği göstərdi. Axşam Sevda Kinq-Konqla bağlı baş verənləri valideynlərinə danışdı. Onlar xeyli güldülər.



**• Söz boğçası •**

- məbləğ
- monitor
- ehtiyac
- siyirmə

Ata Sevdanı tərifləyib daxıla 50 qəpik atdı. Qızının sevindiyini görən ana da daxıla 40 qəpik atdı. Pul atıldıqca Kinq-Konq məbləği monitorda işıqlandırırdı.

Beləcə, böyüklər pul verdikcə Sevda onu daxıla atırdı. O, daxılla əməlli-başlı dostlaşmışdı.

**B** **Sevda nə üçün daxıldan pul çıxarmaq istədi?**

**C** **Sizcə, nə üçün daxıl pul verməmişdən qabaq Sevdanı sorğu-suala tutdu?**

**Ç** **Ata Sevdanı hansı hərəkətinə görə təriflədi?**

**D** **Aşağıdakı suallara misal qurub həll etməklə cavab verin.**

*1-ci sual:* *Sevda pulun qalığını daxıla atdıqdan sonra daxılda nə qədər pul oldu?*

*2-ci sual:* *Ana da 40 qəpik atdıqdan sonra daxılda nə qədər pul oldu?*

**• Nümunə •**

***Sual:*** *Sevda qələmyonan üçün pul çıxardıqdan sonra daxılda nə qədər pul qaldı?*

***Cavab:*** *80 qəpik – 60 qəpik = 20 qəpik*

**E** **Monitordakı bu yazılar mətndəki hansı cümləyə uyğun gəlir?**

| | | | | |
|---|---|---|---|---|
| *Daxılda var* | 00 | *man.* | 40 | *qəp.* |
| *Daxil edilən məbləğ* | 00 | *man.* | 50 | *qəp.* |
| *Çıxarılan məbləğ* | 00 | *man.* | 00 | *qəp.* |
| *Qalıq məbləğ* | 00 | *man.* | 90 | *qəp.* |

**5 A** **Sizcə, xoşumuza gələn hər bir şeyi almaq düzgündürmü? Fikrinizi əsaslandırın.**

**B** **Mətni oxuyun. Obrazlara münasibət bildirin.**

*III HİSSƏ*

Sevdanın rəfiqəsi Aysunun xətkeşi qırılmışdı. Anası Aysuya yeni model xətkeş aldı. Sarı rəngli xətkeşin üzərində poni fiquru var idi. Xətkeş Sevdanın çox xoşuna gəldi. Evə çatan kimi daxıla yaxınlaşdı. Monitorda çıxarmaq istədiyi pulun məbləğini yazdı: ***50 qəpik.***

Yazışma başlandı:

*Kinq-Konq* — Bu məbləğ sənə nə üçün lazımdır?

*Sevda* — Xətkeş almalıyam.

*Kinq-Konq* — Xətkeşin yoxdur?

*Sevda* — Var, amma Aysunun xətkeşindən istəyirəm.

*Kinq-Konq* — Deməli, xətkeş almağa ehtiyac yoxdur. Bu, **istək**dir.



| | | | | |
|---|---|---|---|---|
| *Daxılda var* | 5 | *man.* | 60 | *qəp.* |
| *Daxil edilən məbləğ* | 00 | *man.* | 00 | *qəp.* |
| *Çıxarılan məbləğ* | 00 | *man.* | 00 | *qəp.* |
| *Qalıq məbləğ* | 5 | *man.* | 60 | *qəp.* |



Monitorun qırmızı işığı yandı. Sevda gözləsə də, daxıl pul vermədi. O, təkidlə yaşıl düyməni basdı, amma düymə işıqlanmadı. Daxılı var gücü ilə silkələdi və əsəbi halda dedi:

– Bu sənin pulun deyil, mənimdir!

Amma daxıldan səs çıxmadı. Sevda kor-peşman daxıldan aralandı. O, daxıldan möhkəm incidi.

Bir həftə keçdi. Sevdanın anasının ad günü yaxınlaşırdı. O, anasına hədiyyə almağı düşünürdü. Amma necə?! İncidiyinə görə Sevda daxıla yaxın getmirdi. Amma çox fikirləşdi, anladı ki, başqa çarəsi yoxdur. Nəhayət, daxıla yaxınlaşdı, lazım olan məbləği monitorda yazdı:

*Kinq-Konq* – Bu məbləğ sənə nə üçün lazımdır?
*Sevda* – Kitab almalıyam.
*Kinq-Konq* – Nə üçün?
*Sevda* – Anamın ad günüdür. Ona hədiyyə edəcəyəm.
*Kinq-Konq* – İnsanları sevindirmək lazımdır. Pulu götürə bilərsən.

| | | | | |
|---|---|---|---|---|
| *Daxılda var* | 5 | *man.* | 60 | *qəp.* |
| *Daxil edilən məbləğ* | 00 | *man.* | 00 | *qəp.* |
| *Çıxarılan məbləğ* | 3 | *man.* | 00 | *qəp.* |
| *Qalıq məbləğ* | 2 | *man.* | 60 | *qəp.* |

Daxılın yaşıl düyməsi işıqlandı. Siyirməsi açıldı, pullar göründü. Sevda sevinə-sevinə daxıla baxırdı. “Buyur”, – deyə daxıldan səs gəldi.

Sevda pulları götürdü. Daxıla təşəkkür etdi. Sabah anasına hədiyyə alacağını düşündükcə həvəslənirdi. “Görəsən, Kinq-Konq olmasa idi, mən nə edərdim...”

*Rafiq Ələkbəroğlu*



**C** **Nə üçün daxıl xətkeş almaq üçün pul vermədi?**

**Ç** **Mətnin 3-cü hissəsini oxuduqdan sonra Sevdanın xarakteri barədə əlavə nə deyə bilərsiniz?**

**D** **Sizcə, daxıl Sevdaya pulu idarə etməyi öyrətdimi? Fikrinizi əsaslandırın.**

**E** **Cümlələri oxuyun. Hansı cümlədə istək, hansında ehtiyac ifadə olunub?**

*1. Ayaqqabısı təzə olsa da, Gülay daha bir cüt ayaqqabı aldı.*
*2. Gülayın ayaqqabısı cırıldı. Anası təzəsini aldı.*
*3. Eminin dəftərinin üzərinə su töküldü. O, təzə dəftər aldı.*
*4. Əlinin dəftərindən Eminin xoşu gəldi. O da həmin dəftərdən aldı.*

**6 A** **Siz hansı xüsusiyyətinizi dəyişmək istərdiniz? Sizcə, buna necə nail olmaq olar?**

**B** **Qruplarla iş**

**“Ağıllı daxıl” mətninin hər hissəsinə aid plan tərtib edin. Mətni həmin plan əsasında danışın.**

| I qrup | II qrup | III qrup |
| --- | --- | --- |
| 1-ci hissə | 2-ci hissə | 3-cü hissə |

**C** **“Ağıllı daxıl” mətninin əsas hissəsi hansı problemlə başlayır? Bu problemlə bağlı suallara cavab verin.**

**PROBLEM nədən ibarət idi?**

- Problem hansı obrazla bağlı idi?
- Problemin həllinə kim kömək etdi?
- Problem necə həll olundu?
- Problemin həlli nə ilə nəticələndi?

**Ç** **Oxuyun. Hansı cümlə mətndəki əsas fikrə aid deyil?**

*1. Qənaət edən kasıb olmaz.*
*2. Dama-dama göl olar.*
*3. İşləməyən dişləməz.*

**D** **“Mən qənaət etməyi bacarırammı?” mövzusunda bir neçə cümlədən ibarət mətn yazın.**

**7 A** **Verilmiş sözləri oxuyun. Hansı sözlərin ifadə etdiyi varlıqların şəklini çəkmək mümkün deyil? Sizcə, bunun səbəbi nədir?**

*daxıl, yaxşılıq, istək, qəpik, ehtiyac, xətkeş*

• Bunları bilməliyik • **GÖZLƏ GÖRÜNƏN VƏ GÖRÜNMƏYƏN VARLIQLAR**

Ad bildirən bir çox sözlər gözlə görünən varlıqları ifadə edir; məsələn:

*daxıl, dəftər*.

Bəzi ad bildirən sözlər də var ki, onların ifadə etdiyi varlıqlar gözlə görünmür; məsələn:

*istək, ehtiyac, arzu*.

**B** **Verilmiş sözləri cədvələ uyğun qruplaşdırın.**

| | | | | | |
|---|---|---|---|---|---|
| *kitab* | *dostluq* | *dəftər* | *sədaqət* | *çanta* | *şagird* |
| *sevgi* | *qələm* | *arzu* | *məktəb* | *qayğı* | *etibar* |

| Gözlə görünən varlıqlar | Gözlə görünməyən varlıqlar |
|---|---|
| *kitab* | *sevgi* |

**C** **Nöqtələrin yerinə elə sözlər seçin ki, gözlə görünən varlığı bildirsin. Cümlələri köçürün.**

1. *Bu (kitab, fikir) ... çox maraqlıdır.*
2. *(bilik, dost) ... hamıya lazımdır.*
3. *(səs, adam) ... həyətdən gəlirdi.*
4. *Əli bilirdi ki, (söhbət, yol) ... uzanacaq.*

**Ç** **Cütlərlə iş**

**Sözlərin ifadə etdiyi hissləri şəkildə təsvir edin.**

• Nümunə •



*sevinc*

*qorxu*
*təəccüb*
*qayğı*
*qəzəb*

# Ümumiləşdirici təkrar

**8 A** **Mətni oxuyun. Hadisələrin ardıcıllığına uyğun plan tərtib edin.**

## PİŞİK VƏ GƏLİNCİK

Şəhərin ucqar küçəsində bir qonur pişik yaşayırdı. O, yaşıl bir bağçada hasarın dibində özünə evcik tikmişdi.

Bir gün pişik küçədə gəzərkən bir gəlincik tapdı. Onu dişinə alıb evciyinə apardı.

Ertəsi gün pişik gördü ki, qonşuluqda yaşayan qızcığaz nə isə axtarır. Anası isə deyirdi:

– Gedək, qızım, təzəsini alarıq.

– Yox! Mən öz gəlinciyimi istəyirəm, – deyə qız ağlayırdı.

– Onda itirməzdin. Öz günahındır.

Pişik evciyinə gəldi. Gəlinciyə baxıb öz-özünə dedi: "Anası düz deyir də, gərək itirməzdi. İndi o mənim gəlinciyimdir". Amma sonra nə fikirləşdisə, gəlinciyi dişinə alıb qızgilə gəldi.



Gəlinciyini görən qız çox sevindi. O, pişiyi evə saldı, ona nimçədə süd verdi. Gəlinciyini bağrına basdı. Onlar xeyli oynadılar.

Axşam pişik evciyinə gedəndə bilirdi ki, sabah qız onu səbirsizliklə gözləyəcək. Çünki gəlincik onları ayrılmaz dostlara çevirmişdi.

*Elçin Cabbarov*

**B** **Mətnin tərkib hissələri ilə onlara verilən adları uyğunlaşdırın.**

| | |
|---|---|
| 1 GİRİŞ | a *Yeni dostlar* |
| 2 ƏSAS | b *Bağçada yaşayan pişik* |
| 3 NƏTİCƏ | c *Düzgün qərar* |

**C** **Altından xətt çəkilmiş cümləni bir daha oxuyun. Sizcə, pişik nə fikirləşdi?**

**Ç** **Mətndən verilmiş sözləri oxuyun. Hansı sözlərin ifadə etdiyi varlıqları gözlə görmək mümkündür? Həmin sözləri cümlədə işlədib yazın.**

*gəlincik, günah, küçə, süd, nimçə, səs.*

*BURAXILIŞ MƏLUMATI*

_______________________________

*Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün*
*Azərbaycan dili (tədris dili) fənni üzrə*
***dərslik***
*(1-ci hissə)*

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Rafiq İsmayılov** |
| | **Ülkər Nurullayeva** |
| | **Şəhla Zahidova** |
| | **İradə Bayramova** |
| | **Aysel Xanalıyeva** |
| Layihə rəhbəri | **Rafiq İsmayılov** |
| İxtisas redaktoru | **Rafiq İsmayılov** |
| Dil redaktoru | **Dilrüba Cəfərova** |
| Bədii redaktor | **Taleh Məlikov** |
| Texniki redaktor | **Zeynal İsayev** |
| Dizayner | **Taleh Məlikov** |
| Rəssam | **Elmir Məmmədov** |
| Korrektor | **Aqşin Məsimov** |

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi: 2021-009**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri
və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978-9952-8401-1-7

Hesab-nəşriyyat həcmi: 11,8. Fiziki çap vərəqi: 13.
Səhifə sayı: 104. Kəsimdən sonra: 220 × 275. Kağız formatı: 57 × 90 $^1/_8$.
Şriftin adı və ölçüsü: Calibri, 16 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ___. Tiraj: 170167. Pulsuz. Bakı – 2021.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 11.07.2021**

Çap məhsulunu nəşr edən:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş. A.Cəlilov küç., 86).

Çap məhsulunu istehsal edən:
"Təhsil NP" MMC (Bakı, F.Xoyski küç., 121a)

Pulsuz

**Əziz məktəbli !**

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!

